**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC BİZNES MƏKTƏBİ**

**UNEC Biznes Məktəbinin direktoru**

**i.e.n., dos. Hacıev Nazim Özbəy oğlu**

**“____________________” (imza)**

**“__” _____________ 2024-cü il**

# “AZƏRBAYCAN RESPUBLİKASININ ASİYA ÖLKƏLƏRİ İLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF PRESPEKTİVLƏRİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYA İŞİ

**İxtisasın şifri və adı:** 060409 Biznesin təşkili və idarə edilməsi

**İxtisaslaşma:** Ümumi təyinatlı

**Qrup:** A2/2-22


**Magistrant:**
**Qurbanova Həqiqət Mehdi**
**_____________________imza**

**Elmi rəhbər:**
**i.e.d., prof Quliyev Rövşən Rasim**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., Şəfizadə Elnurə Rafiq**
**_____________________imza**

**Kafedra müdiri:**
**i.e.n., dos. Məmmədova Sevər Mömin**
**_____________________imza**


**BAKI-2024**

# “AZƏRBAYCAN RESPUBLİKASININ ASİYA ÖLKƏLƏRİ İLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF PRESPEKTİVLƏRİ”


## Xülasə

**Dissertasiya işinin aktuallığı:** Azərbaycanın aparıcı Asiya ölkələri ilə mövcud olan ticarət əlaqələrinin istiqamətlərinin təhlil olunması, eləcə də bu sahə ilə bağlı elmi və praktik əhəmiyyətli təklif və tövsiyyələr vermək ticarət sahəsinin inkişafı üçün əhəmiyyətlidir. Buna görədə Azərbaycanın aparıcı Asiya ölkələri ilə mövcud olan ticarət əlaqələri ön plana çəkilmişdir.

**Dissertasiya işinin məqsədi:** Dissertasiya işinin əsas məqsədi Azərbaycanın aparıcı Asiya ölkələri ilə mövcud olan ticarət dövriyyəsini araşdırmaq, gələcəkdə bu sahənin inkişafı üçün müəyyən təkliflər verməkdir.

**Dissertasiya işində istifadə edilmiş biznes tədqiqat metodları:** Tədqiqat işində tarixi, analiz, sintez, induksiya və deduksiya metodlarından istifadə olunmuşdur.

**Dissertasiya işinin informasiya bazası:** Tədqiqat işində informasiya bazası olaraq müxtəlif internet resurslarından, yerli və beynəlxalq qurumların məlumatlarından istifadə olunmuşdur.

**Dissertasiya işinin məhdudiyyətləri:** Tədqiqat aparılan zaman bir sıra məhdudiyyətlər meydana çıxmışdır. Bu məhdudiyyətlərə beynəlxalq ticarət nəzəriyyələri, aparıcı Asiya ölkələrinin ticarəti dövriyyəsi haqqında məlumatların kifayət qədər olmaması aiddir.

**Dissertasiya işinin praktik nəticələri:** Tədqiqatın əsas praktik nəticələri Azərbaycanın aparıcı Asiya ölkələri ilə idxal və ixrac əməliyyatlarının Azərbaycan üçün əlverişli şəraitdə həyata keçirilməsinə tövhə verməkdir. Bu təkliflər ticarət əlaqələrinin inkişafına öz müsbət təsirini göstərə bilər.

**Nəticələrin istifadə oluna biləcəyi təşkilat, müəssisə və biznes sahələr:** Tədqiqatın nəticələri Azərbaycanın aparıcı Asiya ölkələri ilə mövcud olan ticarət əlaqələrinin inkişaf etdirilməsində, o cümlədən, ticarət dövriyyəsinin inkişaf etdirilməsində maraqlı olan şəxslər tərəfindən istifadə olua bilər.



**Açar sözlər:** *Asiya ölkələri, Beynəlxalq ticarət nəzəriyyələri, Ticarət, Azərbaycanın Asiya ölkələri ilə ticarət əlaqələri*

## Təşəkkürnamə

Mən, Qurbanova Həqiqət Mehdi qızı “Azərbaycan Respublikasının Asiya ölkələri ilə ticarət əlaqələrinin inkişaf prespektivləri” adlı magistr dissertasiyası işimin yazılmasında mənə göstərdiyi akademik və praktiki dəstəyə görə elmi rəhbərim Quliyev Rövşən Rasim oğluna dərin təşəkkürümü bildirirəm.

MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................................................ 5

**FƏSİL I. BEYNƏLXALQ TİCARƏTİN NƏZƏRİ – METODOLOJİ BAZASI ........................................................................................................ 8**

1.1. Beynəlxalq ticarətin nəzəriyyələri ........................................................ 8

1.2. Ölkələrarası ticarətə təsir edən amillər ................................................ 17

**FƏSİL II. APARICI ASİYA ÖLKƏLƏRİ VƏ ONLARIN BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİ ........................................................................ 21**

2.1. Asiyanın aparıcı ölkələrinin sosial-iqtisadi və demoqrafik vəziyyəti (son 5 il üzrə analiz) ........................................................................................ 21

2.2. Asiyanın aparıcı ölkələrinin xarici ticarəti ............................................ 44

**FƏSİL III. AZƏRBAYCANIN APARICI ASİYA ÖLKƏLƏRİ İLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN PERSPEKTİVLƏRİ ................................................ 56**

3.1. Aparıcı Asiya ölkələrinin Azərbaycanın beynəlxalq ticarətində rolu və yeri ........................................................................................................ 56

3.2. Azərbaycanın aparıcı Asiya ölkələri ilə ticarət əlaqələri (mal qrupları kəsimində) ........................................................................................ 62

3.3. Azərbaycanın aparıcı Asiya ölkələri ilə ticarət əlaqələrinin inkişaf istiqamətləri ........................................................................................................ 67

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 73**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........................................................ 75**

Cədvəllərin siyahısı ........................................................................................ 81

Diaqramların siyahısı ........................................................................................ 82

# GİRİŞ

**Mövzunun aktuallığı:** Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasət sayəsində xüsusilə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın nüfuzu artıb. Ölkəmiz özünə yeni etibarlı tərəfdaşlar qazanıb. Ölkəmizlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı isə günü-gündən artır. Əlbəttə ki, bu çox böyük uğurdur.

Asiya qitəsinin böyük və kiçik dövlətləri ilə Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələri mövcuddur. Bu əlaqələr müxtəlif sahələr üzrədir.

Son illərdə yeni layihələr Azərbaycanın daha tez tanınmasına müsbət təsir edir. Belə layihələrə "Bir kəmər, bir yol"-u, "Şahdəniz-2"-ni, "Azəri-Çıraq-Günəşli"-ni misal göstərə bilərik.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Beynəlxalq ticarət nəzəriyyələri, onların növləri haqqında daha geniş informasiya internet resurslarından əldə olunmuşdur. Azərbaycan dilində mövcud olan ədəbiyyatda isə kifayət qədər dolğun informasiya mövcud deyil.

**Tədqiqatın məqsəd və vəzifələri:** Bu tədqiqatın məqsədi Azərbaycanın aparıcı Asiya ölkələri ilə olan ticarət əlaqələrinin inkişaf istiqamətlərini müəyyənləşdirməkdir. Tədqiqat aparıcı Asiya ölkələrinin Azərbaycanın beynəlxalq ticarətində rolu və yerini nəzəri, metodoloji aspektlərini müəyyən etmək, həmçinin hazırki ticarət əlaqələrini qiymətləndirmək məqsədi daşıyır.

Bu məqsədə çatmaq üçün qarşıya qoyulmuş bir sıra vəzifələr vardır:

1. Beynəlxalq ticarət nəzəriyyələri haqqında ümumi məlumat əldə etmək.
2. Ticarət sahəsində uğurlu inkişaf etmək üçün ölkələrarası ticarətə təsir edən amilləri müəyyənləşdirilməsi.
3. Daha sonra isə Asiyanın aparıcı ölkələrinin sosial-iqtisadi və demoqrafik vəziyyətini son 5 il üçün analiz etmək.
4. Əsas lazımlı məlumatlardan biri də, Asiyanın aparıcı ölkələrinin xarici ticarətidir.
5. Aparıcı Asiya ölkələrinin Azərbaycanın beynəlxalq ticarətində rolunu və yerininin müəyyən edilməsi.

6. Azərbaycanın aparıcı Asiya ölkələri ilə ticarət əlaqələrində hansı məhsulların üstünlük təşkil etdiyini müəyyən etmək.

7. Azərbaycanın aparıcı Asiya ölkələri ilə ticarət əlaqələrinin inkişaf istiqamətlərinin müəyyən edilməsi.

Bu tədqiqat vəzifələrini tamamlayaraq, Azərbaycanın aparıcı Asiya ölkələri ilə ticarətdə rolunu və yerini müəyyənləşdirəcəyik.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyekti ticarət əlaqələridir. Tədqiqatın predmeti isə ticarət əlaqələrinin inkişaf məsələlərinin təhlilidir.

**Tədqiqatın metodları:** Tədqiqat işində tarixi, analiz, sintez, induksiya və deduksiya metodlarından istifadə olunmuşdur.

Tarixi metod vasitəsi ilə beynəlxalq ticarət nəzəriyyələrinin yarandığı tarixlər ardıcıllıqla şərh olunmuşdur.

Analiz metodunda Azərbaycanın aparıcı Asiya ölkələri ilə mövcud olan ticarət əlaqələri bir sistem kimi götürülür. Bu metodda seçilmiş 6 aparıcı Asiya ölkəsinin həm idxal, həm də ixrac məlumatları ayrı-ayrılıqda təhlil edilmişdir. Bu isə ticarət əlaqələrinin əsas inkişaf prespiktivlərini daha yaxşı araşdırmağa imkan yaradır. Analiz və sintez metodu tədqiqat işində əsas məlumatların araşdırılmasında mühüm əhəmiyyət kəsb etmişdir.

İnduksiya metodunda faktlardan nəzəriyyəyə hərəkət nəzərdə tutulur. Ticarət əlaqələri ilə bağlı məlumatlar toplanılır və sistemləşdirilir.

Deduksiya metodunda isə nəzəriyyədən faktlara hərəkət nəzərdə tutulur. Yəni, toplanan məlumatlar əsasında müxtəlif nəticələr və təkliflər hazırlanmışdır.

Bundan əlavə tədqiqat işində inkişaf qanunauyğunluqlarını müəyyən etmək üçün qrafiklərdən və cədvəllərdən istifadə olunub. Çünki həm qrafik, həm də cədvəllər məlumatları daha yaxşı başa düşməyə və dərindən təhlil aparmağa imkan yaradır.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin yazılmasında müxtəlif resurslardan istifadə edilir. Dissertasiyanın informasiya bazası üçün internetdə mövcud olan müxtəlif elektron mənbələrdən məlumatlar toplanmışdır. Eyni

zamanda Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin və Dövlət Gömrük Komitəsinin rəqəmləri və informasiya resurslarından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Əsas məhdudiyyətlərdən biri analiz üçün yüksək keyfiyyətli və həcmli məlumatların az olmasıdır. Araşdırma aparılmış obyektlərin sayı məhdud olması tədqiqatın məhdudiyyətləri hesab etmək olar.

**Tədqiqatın elmi yeniliyi:** Azərbaycanın və aparıcı Asiya ölkələrinin idxal və ixracının dinamikasının tədqiqi əsasında Azərbaycanın bu ölkələrlə ticarət əlaqələrinin qarşılıqlı əlverişli şərtlərlə genişlənməsi istiqamətində təkliflərin hazırlanmasından ibarətdir.

**Nəticələrin praktik əhəmiyyəti və tətbiq sahələri:** Ticarət sahəsində işləyən şəxslər, biznesmenlər bu dissertasiya işi sayəsində Azərbaycanın idxal, ixrac məlumatları haqqında məlumat əldə edə bilərlər. Həmçinin ticarət haqqında buraxılış işi və dissertasiya işi yazan şəxslərdə onlara lazım olan məlumatları əldə edə bilərlər.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat, cədvəllərin siyahısı və diaqramların siyahısından ibarətdir.

# FƏSİL I. BEYNƏLXALQ TİCARƏTİN NƏZƏRİ METODOLOJİ BAZASI

## 1.1 Beynəlxalq ticarətin nəzəriyyələri

Ticarət dedikdə 2 fərqli tərəf arasında mövcud olan mal və yaxud xidmət mübadiləsi nəzərdə tutulur. Ticarət növlərinə topdansatış və pərakəndə ticarəti misal göstərə bilərik. Topdansatış dedikdə adındanda göründüyü kimi böyük miqdarda ticarət nəzərdə tutulur. Bu ticarət istehsalçı və distribyutorlar arasında baş verir. Pərakəndə ticarət isə birbaşa istehlakçıya malların və ya xidmətlərin göstərilməsidir.

Ticarəti daxili və beynəlxalq ticarət kimi də təsnif edə bilərik. Daxili ticarət dedikdə bir millət daxilində baş verən ticarət nəzərdə tutulur. Beynəlxalq ticarət isə millətlər arasında olan ticarətdir.

Müasir dövrümüzdə ticarət iqtisadiyyatın ən vacib hissəsidir. Dünya inkişaf etdikcə ölkələr arasında olan ticarət də daha da artdı. Ölkələr özünü tam təmin edə bilmədiyindən beynəlxalq ticarətə ehtiyac yarandı. Nəticədə ölkələr mal və xidmətlər görə bir-birindən asılı hala düşdülər. Ancaq ticarət yeni anlayış deyil. 16-17-ci əsrlərdə merkantilizmin böyüməsi ilə barter sistemi mərhələli şəkildə aradan qaldırıldı. 18-ci əsrdən etibarən liberalizm populyarlaşdı. Nəticədə malların sərhədlərdən sərbəst şəkildə hərəkət etməsinə imkan yarandı. Beləliklə, liberalizm ölkələr arasında beynəlxalq ticarətə yol açdı.

Beynəlxalq ticarət ÜDM-ə böyük təsir göstərir. İndiki dövrdə biz əvvəlki dövürdən daha çox xidmət və mal ticarət edirik. Qlobal malların ixracı 1983-cü ildən etibarən kəskin şəkildə artdı. Beləki artım 1,8 trilyon ABŞ dollarından 18,4 trilyon ABŞ dollarına çatdı. 5,9 trilyon ABŞ dolları isə ticarət xidmətlərinin payına düşür. Qlobal olaraq, biz ildə adambaşına təxminən 7000 dollar ticarət edirik. Beləliklə, beynəlxalq ticarət bu gün qaçınılmaz hal alıb.

Beynəlxalq ticarət bir konsepsiya kimi müəyyən nəzəriyyələrə əsaslanır. Bu nəzəriyyələrdə beynəlxalq ticarəti müxtəlif perspektivlərdən izah etməyə kömək edir. Klassik və müasir nəzəriyyə olmaqla 2 düşüncə məktəbi mövcuddur (modern-theory-of-international-trade).

Beynəlxalq ticarət nəzəriyyələri klassik nəzəriyyələrə qədərki konsepsiyalar, klassik nəzəriyyələr, neoklassik nəzəriyyələr və müasir nəzəriyyələr olaraq bölünür.

Klassik nəzəriyyələrə qədərki konsepsiyalara merkantilizm və fiziokratizm aiddir.

Merkantilizim sözü italyan sözü olub mənası tacir deməkdir. O yaranana qədər iqtisadi nəzəriyyə müstəqil tədqiqat sahəsi olmamışdır. İqtisadi tədqiqatlar sistemsiz şəkildə aparılmışdır və iqtisadi fəaliyyət müstəqil fəaliyyət sahəsi kimi qəbul edilməmişdir. İqtisadi hadisəni, qanunauyğunluqları və prosesləri öyrənən ilk nəzəri praktik sistem merkantilizm olub.

Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin əsas hissəsini təşkil edirdi. Bunu da həmin dövrlərdə Qərbi Avropada baş vermiş sosial iqtisadi dəyişikliklərlə: milli bankların və dünya bazarının yaranması, əmtəə-pul nünasibətlərinin inkişafı, böyük coğrafi kəşflər və s. ilə əlaqələndirmək olar.

Onların ideyaları və prinsipləri hələ də müasir bazar təsərrüfatlı sistemlərdə geniş istifadə olunur. Aktiv ticarət balansını bura aid edə bilərik.

Merkantilistlərin əsas ideya və prinsipləri bunlardır:

- Əsas amil qiymətli metalların yığımıdır.
- Dövlətin gücünün artırılması. Buna qızıl və gümüş kimi qiymətli metalların yığılması aiddir.
- Sənayenin inkişafına təsir edən əsas amil ucuz xammalın idxalıdır.
- Həmin məhsullara tariflərin tətbiq olunması.
- Xarici ticarəti tənzimləmək. Bunun sayəsində ölkəyə qızıl və gümüş axınını təmin etmək.

"Siyasi iqtisad" termini merkantilistlərlə bağlıdır. Bu termin ilk dəfə A. Monkretyen tərəfindən istifadə edilmişdir. "Siyasi iqtisadın traktatı" əsərini 1615-ci ildə nəşr elətdirmişdir.

Bu nəzəriyyəni həm iqtisadi, həm də iqtisadi siyasət nəzəriyyəsinə aid edə bilərik. Merkantilizmin əsas məğzi ölkəyə qiymətli metalların cəlb olunmasıdı. Onlar qarşılarına məqsəd qoyublar ki, dövlətin qüdrətini və sərvətini artırsınlar. Ticarət sistemində bunun yollarını axtarırlar. Bu nəzəriyyədə tacirlərin və

sələmçilərin mənafeyi müdafiə olunur. Ticarət kapitalı kapitalın ilkin forması hesab olunur. Daha sonra isə sənaye kapitalı yaranmışdır (web2.anl.az).

Sonda belə nəticəyə gəlirik ki, merkantilizm təkcə İngiltərə, Fransa, Almaniya və İtaliyada deyil, Rusiya, İspaniya, Şotlandiya kimi ölkələrdə də üstünlük təşkil edib. Alexander Grey qeyd edirdi ki, "merkantilizm üç yüz il davam etmiş və buna görə də Avropadakı hər bir ölkənin düşüncə tərzinə, davranışlarına təsir göstərmişdir". Haney qeyd edir ki, “merkantilizm 16-18-ci əsrlərdə Avropa dövlət adamları arasında hökm sürən iqtisadi baxışları əhatə edir”.

Merkantilizmin əsas məqsədi ölkəni güclü etmək idi. Ölkənin gücü ölkənin sərvətində idi. Sərvət dedikdə ölkənin qızıl və gümüş kimi qiymətli metalları nəzərdə tutulurdu. Ən faydalı sərvət forması olduğu üçün merkantilistlər qızıla daha çox əhəmiyyət verirdilər.

Ölkə ticarət yolu ilə qızıl və gümüş əldə edə bilər. Bunun üçün də ölkədə əlverişli ticarət balansı olmalıdır. Bir sözlə, ixrac idxaldan artıq olmalıdır.

Onlar ticarəti ən mühüm məşğuliyyət sahəsi hesab edirdilər. Sənaye isə əhəmiyyətinə görə ikinci yerdə idi. Kənd təsərrüfatı isə o qədər də əhəmiyyət kəsb etmirdi (an-overview-of-mercantilism-physiocracy).

Merkantilistlərin iqtisadi ideyaları ilə mübarizə nəticəsində fiziokratlar məktəbi yarandı.

Fiziokratlar məktəbi klassik nəzəriyyəyə qədərki konsepsiyada əsas yer tutur. Bu məktəbin çoxlu görkəmli nümayəndələri var. Onlar bu nəzəriyyəyə öz töhvələrini veriblər. Artıq bu dövrdə Qərbi Avropa öz yetkinlik dövrünü yaşayırdı. Kapitalizm inkişaf etmişdi. XVIII əsrin ortalarında artıq bütün ölkələrdə iqtisadi dəyişikliklər baş vermişdir.

İlkin kapital yığımı dövrü artıq başa çatmışdı. Aqrar ölkələrdə, xüsusilə müstəmləkələrdə ticarət öz ictimai əhəmiyyətini itirmişdi.

F.Kene, V.Mirabo, A.R.Türqo fiziokratizmin görkəmli nümayəndələri idi. F.Kene 1694-cü ildə anadan olmuşdu. Təhsil almamışdır. Buna baxmayaraq tibb sahəsini müstəqil şəkildə öyrənmişdir. Daha sonra isə həkim işləmişdir. Tibbə aid bir neçə iş yazmışdır. Bunun nəticəsi olaraq elmi dərəcə almışdır.

Fiziokratizm məktəbinin əsasını Fransua Kene qoymuşdur. O, həmçinin bu məktəbin həm siyasi, həm də iqtisadi proqramını formalaşdırmışdır.

F.Kene 1756-cı ildə Didronun təklifi ilə ensiklopediya yazmağa başlayır. Bundan sonra onun həyatı dəyişir. Kenenin ətrafında inqilabi ruhda olan Didro, Helvetsi, Mirabo, Tyürqo var idi. Onlar müxtəlif mövzuları tənqid edirdilər. Məsələn, cəmiyyəti, dövlət quruluşunu, dini və s.

Xalqın iztirablarını, əzablarını yaxşı başa düşürdü. Saray mühitində yaşamasına baxmayaraq özü də xalq arasından çıxmışdı. Bundan başqa Kene kəndliləri də, aristokatları da yaxşı başa düşürdü. Onlar ilə sıx əlaqəsi mövcud idi. Kenenin iqtisadi baxışlarına təsir edirdilər. "Fermerlər", "Taxıl", "Əhali" və "Vergilər" adlı məqalələr 1756-1757-ci illərdə yazılmışdır. Bu məqalələr kənd təsərrüfatına həsr olunmuşdu.

Bir müddət sonra ensiklopediya ilə olan münasibətlərini kəsir. Çünki burdakı maarifçilər materialist idilər. Kene isə tam əksi idealist idi.

"Fermerlər" və "Taxıl" məqalələrinin əsas məğzi odur ki, çatışmamazlıqlar qeyd olunub. Məsələn əkinçilik sistemində olan gerilik, kənd təsərrüfatının təşkilinin zəif olması və s. O, istəyirdi ki, iri fermer təsərrüfatı yaransın. Aqrar mədəniyyətin artmasını və kənd təsərrüfatında muzdlu əməyin tətbiq olunmasını istəyirdi. İstehsal kiçik olduqda çoxlu sərvət itir. Bu da aclığa səbəb olur.

Sonda isə qeyd edə bilərik ki, Kene feodalizmin tamamilə ləğv olunmasını istəyirdi. Varlılar daha da varlanırdılar (web2.anl.az).

"Kənd fəlsəfəsi" əsərini F.Kene və tələbəsi Markiz de Mirabo 1763-cü ildə yazırlar. Bu əsərdə fiziokratlar haqqında məlumatlar verilir. Ancaq istiqamətin adı redaktə olunaraq "Fiziokratiya" əsərində verilmişdir. Bunu da Kenenin tələbəsi Nemur edir.

Jak Türqo fiziokrat iqtisadi nəzəriyyəsinin liderlərindən biri idi. O, 1776-cı ildə "Sərvətin yaranması və bölüşdürülməsi haqqında düşüncələr" əsərini yazmışdır. Bu əsərə görə də A.Smitdə maraq yaratmışdır.

1727-ci ildə Ann Raber Jak Türqo Parisdə anadan olmuşdur. O, zadəgan ailəsindən idi. Onun istedadı gənc yaşlarından özünü göstərməyə başlamışdır.

Kenenin təliminə görə fiziokratlar sistemi üç sinifdən ibarət idi. Birincisi məhsuldar sinif, ikincisi torpaq sahibləri sonuncusu isə bəhrəsiz. Məhsuldar dedikdə əkinçilər, bəhrəsiz dedikdə isə bütün yerdə qalanlar nəzərdə tutulur (Rzayeva Ş.M və Əliyeva L.Z., 2018 s.84-85).

Klassik nəzəriyyə haqqında danışarkən mütləq Adam Smitin, David Rikardonun və Con Stüart Millin adını qeyd etmək lazımdır.

Klassik nəzəriyyənin banisi Adam Smitdir. Onun ideyaları müasir dövrümüzdə də iqtisadi düşüncənin əsasını təşkil edir.

Adam Smit 5 iyun 1723-cü ildə Şotlandiyanın şərq sahilindəki liman şəhəri olan Kirkkaldidə anadan olmuşdur. Atası öldükdən sonra anası onu tək böyütmüşdür. On dörd yaşında təqaüdlə Qlazqo Universitetinə daxil olub. Daha sonra 1740-cı ildə o, Oksforddakı Balliol Kollecinə daxil olub. Daha sonra isə oranı tərk edib. Bir müddət mühazirələr oxuyur. Daha sonra o, Qlazqo Universitetində əvvəlcə məntiq professoru (1751), sonra isə əxlaq fəlsəfəsi professoru (1752) təyin edilmişdir. 1759-cu ildə "Əxlaqi hisslər nəzəriyyəsi" çap olunmuşdur (www.econlib.org/library).

Çox az sayda fərdi kitab onun "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında araşdırma" əsəri qədər təsir göstərmişdir. Onun əmək bölgüsü və azad ticarət, mübadilədə şəxsi maraq, dövlət müdaxiləsinə məhdudiyyətlər, qiymət və bazarın ümumi strukturu haqqındakı mülahizələri iqtisadiyyatın "müasir"ə keçidi anını ifadə edir. Bəzən "Xalqların Sərvəti" əsərini iqtisadiyyata aid kitab kimi qəbul etmirlər. Onu daha çox sosiologiya, antropologiya, fəlsəfə, siyasi elm, tarix və iqtisadiyyatın daha geniş qarışığı olan "siyasi iqtisad"-a aid olduğunu deyirlər (iep.utm.edu/smith/).

David Rikardo ailədə 17 uşaqdan üçüncüsü olmuşdur. 14 yaşında olarkən Hollandiyada birjada ticarət etməyə başlayıb. Yəhudi olduğu üçün, o vaxtın qanunlarına əsasən onun başqalarına mane olmaq hüququ yox idi. Valideynlərinin varlı olmasına baxmayaraq Rikardo başqa dinə mənsub xanımla ailə qurduğuna görə onu mirasdan məhrum ediblər. Bundan sonra o, bankda işləməyə başlayır.

İqtisadiyyata Adam Smitin işləri ilə tanışlıqdan sonra başlamışdır. Onun əsas nəzəriyyələrinə “müqayisəli üstünlüklər”, “əmək dəyər” aiddir.

“Müqayisəli üstünlüklər” nəzəriyyəsində əsas məna ondan ibarətdir ki, ölkələr mütləq üstünlüyə malik olmasalar belə, istehsalda aşağı dəyərə malik olan malların istehsalında ixtisaslaşa bilərlər.

“Əmək dəyər” nəzəriyyəsində əmtəənin dəyəri onu istehsal etmək üçün sərf olunan əməklə ölçülür (david-ricardo.asp).

Neoklassik iqtisadiyyat əmtəə və xidmətlərin istehsalının, qiymətlərinin və istehlakının hərəkətverici qüvvələri kimi tələb və təklifə diqqət yetirən geniş bir nəzəriyyədir. Bu nəzəriyyə 1900-cü illərdə yaranmağa başlamışdı.

Klassikdən neoklassik iqtisadi nəzəriyyəyə keçid 1800-cü illərin sonlarında William Stanley Jevons, Carl Menger və Leon Walrasın işlərindən sonra oldu. Neoklassik iqtisadiyyatın əsas nəzəriyyəsi iqtisadiyyatın prinsipləri adlanır. Nəzəriyyə Alfred Marshall tərəfindən yazılmış və 1900-cü illərin əvvəllərində istifadə edilmişdir.

Neoklassik iqtisadçılar hesab edirlər ki, əsas istehlakçının şəxsi məmnuniyyətini maksimuma çatdırmaqdır. Belə olduqda insanlar məhsul və ya xidmətin faydalılığına dair qiymətləndirmələrinə əsaslanaraq satınalma qərarlarını qəbul edirlər. Bu rasional davranış nəzəriyyəsi ilə üst-üstə düşür. İnsanlar hansının onlar üçün daha yaxşı olduğunu müqayisə edərək iki variant arasında ən doğru hesab etdiklərini seçirlər.

Neoklassik iqtisadiyyat bir məhsulun və ya xidmətin çox vaxt istehsal xərclərindən yüksək və daha yüksək dəyərə malik olmasını şərtləndirir.

Bu iqtisadi nəzəriyyə bildirir ki, rəqabət iqtisadiyyat daxilində resursların səmərəli bölüşdürülməsinə gətirib çıxarır. Tələb və təklif qüvvələri bazar tarazlığını yaradır.

Keynsçi bu nəticəyə gəlir ki, bazarda tarazlıq və tam məşğulluq şəraitində artım hökumətin əsas iqtisadi prioritetləri olmalıdır.

Neoklassik iqtisadi nəzəriyyəni əsaslandıran üç fərziyyə ilə bu prinsipləri yekunlaşdırmaq olar:

**1. Rasional düşüncə:** İnsanlar hər zaman seçim edərkən özlərinin müəyyən etdikləri dəyər əsasında seçim edirlər.

**2. Maksimumlaşdırma:** İstehlakçıların əsas hədəfi faydanı maksimuma çatdırmaq, biznes isə əsas hədəfi mənfəəti maksimuma çatdırmaqdır.

**3. Məlumat:** İnsanlar müstəqil şəkildə öz seçimlərini edirlər. Çünki onların bu seçimlər barəsində müvafiq məlumatları olur.

Neoklassik iqtisadiyyatında tənqidçiləri var. Bu tənqidçiləri hesab edirlər ki, neoklassik yanaşma faktiki iqtisadiyyatları dəqiq təsvir edə bilmir. Onlar iddia edirlər ki, istehlakçıların seçim edərkən rasional davrandıqlarına dair fərziyyə insan təbiətinin emosional reaksiyalara qarşı həssaslığına fikir vermir. Neoklassik iqtisadiyyatın tənqidlərinə aid nümunələr aşağıda verilib:

- **Resursların bölüşdürülməsi:** İnsanların qərar qəbul etməsinə əsas təsir edən amillərdən biri resursların bölüşdürülməsidir. Amma resurslar bərabər bölüşdürülmür. Əsas fərq özünü gəliri əməyi yerinə yetirməkdən gələnlər ilə gəliri kapitala sahib olmaqdan gələnlər arasında göstərir.
- **Mövcud seçimlər:** Bu zaman insanlar rasional qərarlar verməyə məcbur olurlar. Ancaq onlar yalnız mövcud seçimlər arasında seçim edə bilərlər. Məsələn, təhlükəli iş və təhlükəsiz iş arasında seçim etmək eyni deyil.
- **Məntiqsiz qərarlar:** İnsanlar heç də həmişə ən rasional qərarı qəbul etmirlər. Onlara sosial təzyiq, başqalarının ehtiyacları, mövcud seçimlər, gəlir məhdudiyyətləri təsir edə bilər. Onlar özləri üçün faydanı maksimum dərəcədə artırmayan seçimlər edə bilərlər.
- **Mənfəət axtarışı:** Mənfəəti artırmaq heç də həmişə bazarların işləməsi üçün ən yaxşı yol hesab olunmur. Çünki bu, bərabərsizliyi gücləndirə, işçiləri istismar edə və ətraf mühitə zərər verə bilər.
- **Yaşayış standartları:** Mal və xidmət istehsalının çox olması həmişə daha yüksək həyat səviyyəsinə bərabər olduğu mənasına gəlmir. İstehlak olunan mal və xidmətlərin miqdarını neoklassik iqtisadiyyat həyat standartları ilə eyniləşdirir. Ancaq daha çox istehlak heç də həmişə sağlamlıq, gözlənilən ömür, sosial bərabərlik, iqtisadi sabitlik və ya həyat keyfiyyətinin digər amilləri yaxşılaşdırmır.

Qlobal borc və ticarət münasibətlərindəki bərabərsizlikdə də tənqidçilər neoklassik iqtisadiyyatı günahlandırırlar. Çünki nəzəriyyə iqtisadi artım nəticəsində əmək hüquqlarının və həyat şəraitinin yaxşılaşacağını düşünür.

Neoklassik iqtisadi nəzəriyyə həm bazarlara, həm də iqtisadi siyasətə öz təsirini göstərir. Biz buna nümunə kimi biznes, hökumət və banklara etdiyi təsirə qeyd edə bilərik.

Neoklassik iqtisadiyyatın prinsiplərini şirkətlər qiymətləri təyin etmək və bizneslərini inkişaf etdirmək üçün istifadə edilə bilər.

Məsələn, neoklassik iqtisadiyyatı başa düşən biznesmen, qiymət təyin edərkən yalnız məhsulun istehsalının xərcinə baxmayacaq. O, həmçinin rəqiblərin hansı seçimə görə ödəniş etdiyini, eləcə də müştərilərin nə qədər ödəməyə hazır olduğunu müəyyən edir. Bundan başqa müştərilərin ödəməyə hazır olduqlarını artırmaq üçün brendinqdən necə istifadə edəcəyini nəzərdən keçirir. Məsələn, günümüzdə də çox istifadə olunan üsullardan biri də sosial mediada hər hansı bir məhsulun məşhurların seçimi adı altında paylaşım etməkdir. Bu artıq markentinqin əsas işidir.

Hökumətlər və banklar da iqtisadi siyasətə və bazarın tənzimlənməsinə təsir edən neoklassik prinsiplərdən istifadə edirlər. Neoklassik iqtisadiyyatın ardıcılları hesab edirlər ki, ağıllı kapitalistlərin əldə edə biləcəyi mənfəətin yüksək həddi yoxdur, çünki məhsulun dəyəri istehlakçı qavrayışı ilə idarə olunur. Bu zaman iqtisadi mənfəət yaranır. İqtisadi mənfəət dedikdə məhsulun faktiki məsrəfləri ilə onun satıldığı qiymət arasındakı fərq nəzərdə tutulur.

Sonda belə nəticəyə gəlirik ki, neoklassik iqtisadiyyatın əsas fərziyyələri istehlakçıların faydalılığı maksimuma çatdırmaq üçün rasional qərarlar qəbul etməsi, müəssisələrin mənfəəti artırmaq məqsədi güdməsi, insanların seçim və ya fəaliyyətlə bağlı bütün müvafiq məlumatlara malik olması əsasında müstəqil hərəkət etməsi və buna cavab olaraq bazarların özünü tənzimləməsidir (www.investopedia.com).

Beynəlxalq ticarətin dörd əsas müasir nəzəriyyəsi var. Heckscher-Ohlin, Maykl Porter, Samuelson-Con və Krugman-Obsfeld modeli.

Bizim dünyamızda hər ölkənin fərqli istehsal strategiyası var. Bu istehsal strategiyası ümumiyyətlə ölkənin iqtisadi bolluğundan asılıdır.

İkinci dünya müharibəsindən sonrakı qlobal iqtisadiyyat Heckscher-Ohlin (HO) modeli ilə daha yaxşı izah olunur. Bu, ticarət edən ölkələrin oxşar istehsal texnologiyasından istifadə edəcəyi ideyasına əsaslanır. Bu model fikri iki isveçli iqtisadçı Eli Hekşer və Bertil Ohlin tərəfindən 1919-cu ildə irəli sürmüşdülər. Heckscher-Ohlin iqtisadiyyat modelinə görə, dövlətlər ən effektiv şəkildə və böyük miqdarda yarada biləcəkləri mal və xidmətləri ixrac etməlidirlər. Bu model HO modeli və ya 2x2x2 modeli kimi tanınır. Ticarətin xüsusən də müxtəlif bacarıqlara və təbii ehtiyatlara malik iki ölkə arasında ticarətin tarazlığını qiymətləndirmək üçün istifadə olunur. İqtisadiyyatda müqayisəli üstünlüklər nəzəriyyəsi olan bu nəzəriyyəyə görə, nisbətən bol kapitala və nisbətən qeyri-kafi əməyə malik olan dövlətlər kapital tutumlu malları ixrac etməyə, əmək tutumlu malları idxal etməyə meyillidirlər. Lakin, nisbətən bol əməyi olan və nisbətən qeyri-kafi kapitala malik olan dövlətlər isə sərmayə tutumlu malları ixrac etməyə meylli olacaqlar. Modeldə bol istehsal vəsaitləri tələb edən əmtəələrin ixrac olunmağı daha düzgün olduğu qeyd olunur (blog.ipleaders.in/heckscher-ohlin-theory-of-international-trade).

Porter 1990-cı ildə "Millətlərin Rəqabət Üstünlüyü" əsərini yazdı. Kitab on millətin araşdırmalarına əsaslanır. Porterin bu nəzəriyyəsi bir ölkənin sənayedə rəqabət qabiliyyətinin sənayenin innovasiya və təkmilləşdirmə qabiliyyətindən asılı olduğunu bildirdi. Onun nəzəriyyəsi bəzi xalqların müəyyən sənaye sahələrində niyə daha rəqabətqabiliyyətli olduğunu izah etməyə yönəlmişdi. Nəzəriyyəsini izah etmək üçün Porter bir-birinə bağladığı dörd determinant müəyyən etdi. Dörd müəyyənedici amil (1) yerli bazar resursları və imkanları, (2) yerli bazar tələb şərtləri, (3) yerli təchizatçılar və tamamlayıcı sənayelər və (4) yerli firma xüsusiyyətləridir.

**1. Yerli bazar resursları və imkanları (faktor şəraiti).** Porter bacarıqlı işçi qüvvəsi, təhsilə, texnologiyaya və infrastruktura investisiyalar kimi müəyyən etdiyi qabaqcıl amillərin bir ölkənin hansı məhsulları idxal və ya ixrac edəcəyini müəyyən

edən əsas amillər olduğunu qeyd edir. O, bu qabaqcıl amilləri ölkəyə davamlı rəqabət üstünlüyü təmin etmək kimi qəbul edirdi.

**2. Yerli bazar tələb şərtləri.** Porter hesab edirdi ki, inkişaf etmiş ev bazarı davamlı innovasiyaları təmin etmək və bununla da davamlı rəqabət üstünlüyü yaratmaq üçün çox vacibdir. Daxili bazarları inkişaf etmiş, trend təyin edən, tələbkar olan şirkətlər davamlı innovasiyalara, yeni məhsul və texnologiyaların inkişafına məcbur edir. Bir çox mənbələr tələbkar ABŞ istehlakçısını ABŞ proqram təminatı şirkətlərini davamlı olaraq yeniliklər etməyə məcbur etdiyini, beləliklə də proqram məhsulları və xidmətlərində davamlı rəqabət üstünlüyü yarandığını qeyd edirlər.

**3. Yerli təchizatçılar və tamamlayıcı sənayelər.** Müəyyən sənayelər coğrafi olaraq qruplaşır, bu da səmərəlilik və məhsuldarlığı təmin edir.

**4. Yerli firmanın xüsusiyyətləri.** Yerli firma xüsusiyyətlərinə firma strategiyası, sənaye strukturu və sənaye rəqabəti daxildir. Yerli strategiya firmanın rəqabət qabiliyyətinə təsir göstərir. Yerli firmalar arasında sağlam rəqabət səviyyəsi sözsüz ki, innovasiya və rəqabətə təkan verir (https://2012books. lardbucket.org/books/challenges-and-opportunities-in-international-business/s06-01-what -is-international-trade-th.html).

## 1.2 Ölkələr arası ticarətə təsir edən amillər

Dünya ölkələrinin xarici ticarətlərini əks etdirən əmtəə-pul münasibətləri beynəlxalq ticarət adlanır. Ümumiləşdirsək müxtəlif ölkələrin satıcıları və alıcıları arasında mövcud olan əmtəə və xidmətlər ilə mübadilə nəzərdə tutulur (beynelxalq_ticaret_ve_xarici_ticaret_siyaseti.pdf).

Ticarətə təsir edən bir sıra amillər var. Bu təsirlər təbii, iqtisadi, siyasi və sosial ola bilər. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

**1. İnflyasiyanın təsiri.** İnflyasiya dedikdə müəyyən müddət ərzində iqtisadiyyatda mal və xidmətlərin qiymətlərinin davamlı artımı nəzərdə tutulur. Qiymət yüksəldikcə hər bir valyuta vahidi daha az mal və xidmət alır. Ümumiləşdirsək inflyasiya pul vahidi üçün alıcılıq qabiliyyətinin azalmasını əks

etdirir. Bir ölkənin inflyasiya səviyyəsi ticarət etdiyi ölkələrə nisbətən artarsa, onun cari hesabının azalır. Həmin ölkədəki istehlakçılar və korporasiyalar artıq xaricdən daha çox mal almağa (yüksək yerli inflyasiya səbəbindən) başlayırlar. Ölkənin digər ölkələrə ixracı isə azalır.

**2. Milli gəlirin təsiri.** Əgər hər hansı ölkənin gəlir səviyyəsi digər ölkələrlə müqayisədə daha yüksək faiz artarsa, onun cari hesabı azalır. Lakin başqa şeylər bərabər qalır. Real gəlir səviyyəsi (inflyasiyaya uyğunlaşdırılmış) yüksəldikcə, malların istehlakı da artır. İstehlakdakı bu artımın faizi çox güman ki, xarici mallara artan tələbi əks etdirəcək.

**3. Hökumətin Siyasətləri.** Ölkə hökuməti ixracatçıların subsidiyalaşdırılması siyasəti, idxala məhdudiyyətlər və piratlığa qarşı mübarizə tətbiq edilməməsi ticarət balansına böyük təsir göstərir. Hökumətin siyasəti idxalı artıra bilər:

•İxracatçılar üçün subsidiyalar Bəzi hökumətlər öz yerli firmalarına subsidiyalar təklif edirlər ki, bu firmalar qlobal rəqiblərindən daha aşağı qiymətə məhsul istehsal edə bilsinlər. Belə ki, subsidiyalar nəticəsində həmin firmaların istehsal etdiyi ixrac məhsullarına tələbat daha yüksək olur. Çində bir çox firma hökumətdən pulsuz kreditlər və ya pulsuz torpaq alır. Bu firmalar daha az əməliyyat xərclərinə məruz qaldıqları üçün məhsullarını daha aşağı qiymətə qoyurlar. Belə olduqda onlar qlobal bazarın daha böyük hissəsini tuturlar.

•İdxal üzrə məhdudiyyətlər Əgər ölkə hökuməti idxal olunan mallara vergi tətbiq edərsə, xarici malların istehlakçılar üçün qiymətlərində artım tətbiq olunur. ABŞ hökumətinin tətbiq etdiyi tariflər digər hökumətlərin tətbiq etdiyi tariflərdən orta hesabla aşağıdır. Tariflərə əlavə olaraq, hökumət öz ölkəsinin idxalını kvota və ya idxal edilə bilən maksimum limit tətbiq etməklə azalda bilər. Kvotalar adətən ABŞ və digər ölkələr tərəfindən idxal edilən müxtəlif mallara tətbiq edilir.

•Piratlığa dair məhdudiyyətlərin olmaması Bəzi hallarda hökumət piratçılığa məhdudiyyətlərin olmaması ilə beynəlxalq ticarət axınlarına təsir göstərə bilər. Çində piratçılıq çox geniş yayılıb. ABŞ və digər ölkələrdə istehsal olunan orijinal məhsula demək olar ki, tam olaraq oxşayan CD və DVD-lər istehsal edirlər. Küçədə CD və DVD-ləri orijinal məhsuldan aşağı qiymətə satırlar. Onlar hətta CD və DVD-

ləri pərakəndə mağazalara satırlar. ABŞ-ın film, musiqi və proqram təminatı istehsalçılarının Çindəki piratçılığa görə hər il 2 milyard dollar satış itirdiyi təxmin edilir. Piratçılıq nəticəsində Çinin idxala tələbatı daha azdır. Piratçılıq ABŞ-ın Çinlə ticarət balansında böyük kəsirinin olmasının səbəblərindən biridir.

•Ətraf Mühit Məhdudiyyətləri: Yerli firmalara daha yüksək xərclər tətbiq edilir. Belə olduqda bu firmalar üçün əlverişsiz şərait yaranır.

•Əmək Qanunları: Daha məhdudlaşdırıcı qanunları olan ölkələr, digər amillər bərabər olduqda, əmək üçün daha yüksək xərclərə məruz qalacaqlar.

•Biznes qanunları: Daha məhdudlaşdırıcı rüşvət qanunları olan ölkələrdəki firmalar bəzi hallarda qlobal miqyasda rəqabət apara bilməyəcəklər.

•Vergi güzəştləri: Mütləq subsidiya olmasa da, məhsul ixrac edən bir çox firmaya fayda verə biləcək dövlət maliyyə dəstəyi formasıdır.

•Ölkə Təhlükəsizliyi Qanunları: Hökumətlər, ticarətə təsir edə biləcək milli təhlükəsizlik narahatlıq doğuran zaman müəyyən məhdudiyyətlər qoya bilər.

**4. Valyuta məzənnələrinin təsiri.** Valyuta məzənnəsi bir valyutanın digərinə nisbətdə qiymətidir. Valyuta məzənnələri müəyyən valyutaya olan tələbdən asılı olaraq dəyişir. Əgər ölkənin valyutasına yüksək tələbat varsa, o zaman onun qiyməti qalxmağa meylli olur. Valyutaların qiyməti dəyişdiyi üçün bir ölkədə mal alıb başqa ölkədə satmaq çox vaxt daha ucuz ola bilər. Beləliklə, valyuta məzənnələri qlobal ticarətə əhəmiyyətli dərəcədə təsir göstərir.

**5. Xarici Valyuta Ehtiyatları.** Beynəlxalq bazarlarda effektiv rəqabət aparmaq üçün ölkənin məhsuldarlığı artan olmalıdır.

**6. Rəqabətlilik**. Hazırkı şəraitdə, bazarlar arasında artan qarşılıqlı asılılıq və rəqabət şəraitində müəssisənin mövcud bazar mövqeyini saxlamaq çox çətindir. Rəqabət qabiliyyəti müxtəlif ölkələrin müxtəlif məhsul və ya xidmətlər təqdim etmək üçün nisbi qabiliyyətinin ölçüsüdür. Rəqabətlilik səmərəliliyi, məşğulluq xərclərini, dövlət tənzimləmə səviyyəsini və biznesin aparılmasının asanlığını nəzərə alır. Rəqabət qabiliyyəti beynəlxalq ticarətə təsir edir, çünki daha rəqabətli ölkələr qlobal ticarətin daha yüksək səviyyəsinə çatmağa meylli olacaqlar.

**7. Qloballaşma.** Qloballaşma milli iqtisadiyyatların bir-biri ilə daha çox inteqrasiyası üçün ümumi tendensiyanı təsvir etmək üçün istifadə edilən termindir. Bu, qabaqcıl kommunikasiya texnologiyaları, logistik texnologiyalar, kapital axınının artması və milli hökumətlər tərəfindən ticarət maneələrinin azaldılması nəticəsində baş verir.

**8. İşçi qüvvəsinin dəyəri**. Əmək xərclərinin aşağı olduğu ölkələrdəki firmalar qlobal miqyasda rəqabət apararkən, xüsusən də əmək tutumlu sənayelərdə üstünlük əldə edirlər (factors-affecting-international-trade-flows-difference-between-balance-of-trade-and-balance-of-payments/#google_vignette).

# FƏSİL II. APARICI ASİYA ÖLKƏLƏRİ VƏ ONLARIN BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİ

## 2.1 Asiyanın aparıcı ölkələrinin sosial-iqtisadi və demoqrafik vəziyyəti (son 5 il üzrə analiz)

Ölkənin əsas iqtisadi göstəricisi onun ÜDM-dir. Beynəlxalq ticarət əlaqələrində xüsusən turizm sahəsində əhalinin sayı xüsusi rol oynayır.

**Cədvəl 1. 2022-ci il Aparıcı Asiya ölkələrinin ÜDM-i və əhalisi.**

| № | Dünya üzrə sıralama | Ölkənin adı | ÜDM, milyon ABŞ dolları. | Əhalisinin sayı (nəfər) |
|---|---|---|---|---|
| 1 | 2 | Çin | 17963171 | 1412175000 |
| 2 | 3 | Yaponiya | 4231141 | 125124989 |
| 3 | 5 | Hindistan | 3385090 | 1417173173 |
| 4 | 16 | İndoneziya | 1319100 | 275501339 |
| 5 | 17 | Səudiyyə Ərəbistanı | 1108149 | 36408820 |
| 6 | 19 | Türkiyə | 905988 | 84979913 |
| 7 | 28 | İsrail | 522033 | 9557500 |
| 8 | 29 | BƏƏ | 507535 | 9441129 |
| 9 | 30 | Tailand | 495341 | 71697030 |
| 10 | 34 | Sinqapur | 466789 | 5637022 |
| 11 | 35 | Banqladeş | 460201 | 171186372 |
| 12 | 36 | Vyetnam | 408802 | 98186856 |
| 13 | 37 | Malayziya | 406306 | 33938221 |
| 14 | 39 | Filippin | 404284 | 115559009 |
| 15 | 42 | Pakistan | 376533 | 235824862 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2022-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

ÜDM-ə görə dünya sıralanmasında Çin 2-ci yerdədir. Əhalisinin sayına görə isə Hindistandan geri qalaraq 2-ci yeri tutur. Yaponiya ÜDM-ə görə dünya üzrə sıralamada 3-cü yerdədir. Əhalisinin sayına görə 6-cı yerdədir. Hindistan ÜDM-ə görə dünya üzrə sıralamada 5-ci yerdədir. Əhalisinin sayına görə 1-ci yerdədir. İndoneziya ÜDM-ə görə dünya üzrə sıralanmada 16-cı, əhalisinin sayına görə isə 3-cü yerdədir. Səudiyyə Ərəbistanı ÜDM-ə görə dünya üzrə sıralanmada 17-ci, əhalisinin sayına görə 14-cü yerdədir. ÜDM-ə görə dünya üzrə sıralanmada Türkiyə 19-cu, əhalisinin sayına görə isə 11-ci yerdədir. İsrail ÜDM-ə görə dünya üzrə sıralanmada 28-ci, əhalisinin sayına görə isə 9-cu yerdədir. BƏƏ ÜDM-ə görə dünya üzrə sıralanmada 29-cu, əhalisinin sayına görə isə 10-cu yerdədir. Tailand ÜDM-ə

görə dünya üzrə sıralanmada 30-cu, əhalisinin sayına görə isə 12-ci yerdədir. ÜDM-ə görə dünya üzrə sıralanmada Sinqapur 34-cü, əhalisinin sayına görə isə 13-cü yerdədir. ÜDM-ə görə dünya üzrə sıralanmada Banqladeş 35-ci yerdədir. Əhalisinin sayına görə isə 5-ci yerdədir. Vyetnam ÜDM-ə görə dünya üzrə sıralanmada 36-cı, əhalisinin sayına görə isə 8-ci yerdədir. Malayziya ÜDM-ə görə dünya üzrə sıralanmada 37-ci, əhalisinin sayına görə isə 15-ci yerdədir. Filippin ÜDM-ə görə dünya üzrə sıralanmada 39-cu, əhalisinin sayına görə isə 7-ci yerdədir. Pakistan ÜDM-ə görə dünya üzrə sıralanmada 42-ci, əhalisinin sayına görə isə 4-cü yerdədir.

Dissertasiya işində 6 ölkə haqqında araşdırma aparılıb. Bu ölkələr İndoneziya, Hindistan, Çin, Yaponiya,Malayziya və Pakistandır. Həmin ölkələrin idxal, ixrac cədvəllərini, əsas tərəfdaşlarını, həmin ölkələrdən ixrac və idxal olan 10 əsas məhsul haqqında olan məlumatlar bu fəsildə verilib.

İlk öncə COVID-19 pandemiyasının əks təsirləri haqqında məlumat vermək istəyirəm. Çünki, pandemiya öz mənfi təsirini demək olar ki, hər yerdə göstərmişdir. Təqribən 60 ildə ilk dəfə olaraq Asiyanın inkişaf etməkdə olan ölkələrinin 2020-ci ildə mənfi artımla üzləşdiyini və 78 milyon insanın gündə 1,90 dollardan aşağı yaşamağa məcbur olduğunu müşahidə olunub.

Hökumət problemləri aradan qaldırmaq üçün bir sıra layihələr hazırlayır. Bunun üçündə ilk öncə hansı sahədə nələrin zəiflədiyini müəyyənləşdirmək lazımdır.

Siyasətin formalaşmasında məlumat potensialı yalnız statistiklər və analitiklərin lazımlı bacarıqlarla təchiz olunduqda etibarlı statistik məlumatlar yaradıldıqda reallaşır.

Region üçün əsas prioritetlərə milli hesablar və qiymət statistikası daxildir. Məlumatların toplanması (məsələn, sorğularda kompüter dəstəyi ilə müsahibə) və yayılması üçün rəqəmsal texnologiyalardan istifadəni dəstəkləmək də vacibdir.

Cədvəllərdən istifadə etməklə COVID-19 pandemiyasının gənclərin işsizliyinə, ticarət kreditlərinə və təchizat zəncirinə təsirlərinin təxminləri də yaradılmışdır.

Vyetnam, Laos Xalq Demokratik Respublikası, Tayland və Filippinin milli statistika idarələri peyk görüntülərindən istifadə etməklə düyü sahələrini və hasilatı qiymətləndirmək üçün AİB ilə işləyiblər.

Məlumatların digər innovativ istifadəsi Tayland və Filippində istifadə olunub. Belə ki, burda yoxsulluq xəritələrini yaratmaq üçün istifadə ediblər. Bu cür xəritələr COVID-19 pandemiyasının təsirini azaltmaq üçün praktiki istifadələrə malikdir və ərzaq paylama proqramlarında həssas ailələri hədəfləmək üçün məlumat mənbəyi kimi istifadə olunurdu (blog/meeting-development-challenges-trusted-data).

Tədqiqatçılar Asiya və Sakit Okean regionunda artımın 2022-ci ildəki 3,9 faizdən bu il 4,6 faizədək sürətlənəcəyini gözləyir. Bu da öz növbəsində keçən ilin apreldəki proqnozdan dəyişməz olaraq qalır. Pandemiyanının yan təsirləri özünü biruzə verdi. Məhdudiyyətlərinin aradan qaldırılması ilə bu iqtisadiyyatlarda tələbat istehlakçılar tərəfindən pandemiya zamanı yığılan əmanətlərin azalması çoxaldı və xidmət sektorunda nəzərəçarpacaq dərəcədə hiss olunmağa başladı.

Bu məsələyə az optimist qiymətləndirilmə üçüncü rübdə artımın və investisiyanın yavaşlaması əlamətlərinə əsaslanır ki, bu da qismən Cənub-Şərqi Asiya və Yaponiya kimi qlobal iqtisadiyyatın yavaşlaması ilə xarici tələbin zəifləməsini və Çində daşınmaz əmlak investisiyalarının zəifləməsini əks etdirir.

Asiya bu il bütün qlobal artımın təxminən üçdə ikisini hələ də öz töhfəsini verməyə hazır olsa da, artımın pandemiyadan əvvəl proqnozlaşdırılandan əhəmiyyətli dərəcədə aşağı olduğunu və hasilatın bir sıra qlobal problemlərlə geri çəkildiyini qeyd etmək vacibdir.

Dəstəklənən inkişaf ondan ibarətdir ki, Asiyada inflyasiyanın getdikcə yaxşılaşması müşahidə olunur və indi əksər ölkələrdə inflyasiyanın gələn il mərkəzi bankın hədəf diapazonlarına qayıtması gözlənilir. Bu proses inflyasiyanın yüksək olaraq qaldığı və yalnız 2025-ci ildə hədəfə düşəcəyi gözlənilən əksər digər regionları xeyli qabaqlayır (asia-continues-to-fuel-global-growth-but-economic-momentum-is-slowing).

**İndoneziya.** 20 aprel 2024-cü ilin məlumatlarına əsasən İndoneziyanın əhalisinin sayı 279,350,291 nəfərdir. 2023-cü ilin ortasında isə əhalinin sayı

277,534,122 nəfər olub. Əhalisinin sayına görə ölkə 4-cü yerdədir (https:// www. worldometers. info/ world-population/indonesia-population/).

Proqnozlara görə, İndoneziyanın hazırkı əhalisinin 2067-ci ilə qədər pik həddinə yəni, 337,38 milyon nəfərə çatacağı və sonrakı onilliklərdə azalacağı gözlənilir.

2000-2010-cu illər arasında İndoneziyada əhalinin orta illik artım tempi 1,49% olmuşdur. İndoneziyanın illik artım dəyişikliyi 2020-ci il üçün təxminən 1,07% təşkil edib. Bu o deməkdir ki, İndoneziya hazırda ildə təxminən 2,73 milyon nəfər artır.

Artan əhali İndoneziya iqtisadiyyatı üçün narahatlıq yaradır, onun böyüməsini və inkişafını ləngitmək təhlükəsi yaradır. Əgər əhalinin artım tempi aşağı olsa adambaşına düşən ÜDM yüksək olacaq. Bu da öz növbəsində yüksək gəlirlərə, yüksək əmanətlərə, yüksək investisiyalara gətirib çıxaracaq və bu da yoxsulluq səviyyəsinin azalmasına səbəb olacaq.

İndoneziyanın ən böyük şəhəri olan Cakarta tez- tez daşqınlara məruz qalır. Əhalinin sıxlığı artdıqca da daşqınların dərinliyi və miqyası artır.

Ailə planlamasında əhaliyə nəzarət cəhdləri o qədər də uğurlu deyil. Ölkənin inkişafının isə nə dərəcədə dayanıqlı olduğunu demək çətindir (https://world populationreview.com/countries/indonesia-population).

İkinci Dünya Müharibəsindən sonra ölkə 1945-ci ildə müstəqillik əldə edib. İndoneziyanın iqtisadiyyatına təsir edən əsas amillər korrupsiya və təbii fəlakətlərdir. 1960-cı illərdə ölkənin iqtisadiyyatı tamamilə çökdü. 1997-1998-ci illərdə Asiya maliyyə böhranı iqtisadiyyata öz təsirini göstərib.

İndoneziyada həm özəl, həm də dövlət müəssisələri fəaliyyət göstərir. Buna görə də iqtisadiyyatı qarışıqdır. G-20-nin üzvüdür. Cənub-Şərqi Asiyada ən böyük iqtisadiyyata malik olan ölkədir. Mütəxəssislər qeyd edirlər ki, yaxın onillikdə İndoneziya dünyanın ilk onluğuna daxil olacaq.

Ölkənin gəlirlərinin 46%-dən çoxunu sənaye, 37%-i xidmətlər və 16%-dən bir qədər çoxu kənd təsərrüfatının payına düşür. Məşğulluğun 49%-i xidmətlər, 38%-i isə kənd təsərrüfatının payına düşür.

İndoneziyanın təbii ehtiyatlarına xam neft, təbii qaz, qalay, mis və qızıl aiddir. İdxalında əsas yeri maşın və avadanlıqlar, kimyəvi maddələr, yanacaq və ərzaq məhsulları tutur. İxracda isə əsas yeri neft, qaz, elektrik cihazları, rezin və tekstil tutur (https://www.chamber-international.com/export-import-key-markets/export-trading withindonesia).

**Cədvəl 2. 2021-ci ildə İndoneziyanın ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 53782 | 23,23 |
| 2. | ABŞ | 25820 | 11,15 |
| 3. | Yaponiya | 17855 | 7,71 |
| 4. | Hindistan | 13289 | 5,74 |
| 5. | Malayziya | 12006 | 5,19 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 3. 2021-ci ildə İndoneziyanın idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 56277 | 28,66 |
| 2. | Sinqapur | 15452 | 7,88 |
| 3. | Yaponiya | 14644 | 7,46 |
| 4. | ABŞ | 11309 | 5,76 |
| 5. | Malayziya | 9451 | 4,82 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Hər iki cədvələ baxdıqda görürük ki, ilk yeri Çin tutur. Lakin ixrac və idxalda ikinci yerdə fərqli ölkələr üstünlük təşkil edir. İxracda ABŞ, idxalda isə Sinqapur. Üçüncü yer həm ixracda, həm də idxalda eyni ölkənin yəni, Yaponiyanın payına düşür. Hindistan ixracda dördüncü yerdədir. ABŞ ixracda ikinci yer olmasına baxmayaraq, idxalda dördüncü yerə düşür. Həm ixracda, həm də idxalda Malayziya beşinci yerdədir.

2022-ci ildə İndoneziya ÜDM-ə görə (hazırkı ABŞ dolları) dünyada 16-cı iqtisadiyyat, ümumi ixracda 26-cı, ümumi idxalda 27-ci yerdə qərar tutub.

İndoneziya ən çox kömür briketlərini (50,8 milyard dollar), palma yağını (28,7 milyard dollar), ferroərintiləri (13,7 milyard dollar), neft qazını (11,8 milyard dollar) və mis filizlərini (8,89 milyard dollar) digər ölkələrə ixarc edir. Bu məhsullar daha çox Çinə (67,7 milyard dollar), ABŞ-a (31,6 milyard dollar), Yaponiyaya (26,6

milyard dollar), Hindistana (25,3 milyard dollar) və Malayziyaya (15,6 milyard dollar) ixrac olunur.

2022-ci ildə İndoneziya palma yağına (28,7 milyard dollar), ferroərintilərə (13,7 milyard dollar), kömürə (8,29 milyard dollar), stearin turşusuna (6,84 milyard dollar) və nikelə (6,27 milyard dollar) görə dünyanın ən böyük ixracatçısı olub.

İndoneziyanın əsas idxalı neft emalı (23,2 milyard dollar), xam neft (10,1 milyard dollar), neft qazı (4,92 milyard dollar), motorlu nəqliyyat vasitələridir. Bu məhsullar əsasən Çindən (71,3 milyard dollar), Sinqapurdan (22,5 milyard dollar), Yaponiyadan (14,9 milyard dollar), Malayziyadan (12,5 milyard dollar) və Taylanddan (10,4 milyard dollar) İndoneziyaya idxal olunur (https://oec.world/en/profile/country/idn?flowSelector1=flow1&marketGrowthViewSelector=marketGrowthViewOption1).

Dünya Bankının 13 dekabr 2023-cü ildə olan yarımillik hesabatında qeyd olunur ki, İndoneziyanın iqtisadi artımı davamlıdır, inflyasiya azalıb və valyuta sabitdir. Bundan başqa ÜDM-in artımının bu il 5%-dən orta hesabla 4,9%-ə qədər azalacağı proqnozlaşdırılır.

2024-cü ildə artımın əsasını şəxsi istehlak təşkil edəcəyi təxmin olunur. Bundan başqa bu il həyata keçiriləcək islahatlar və yeni hökumət layihələri biznes investisiyalarına və dövlət xərclərinədə təsir edəcəyi gözlənilir.

İnflyasiyanı 2023-cü ildə orta hesabla 3,7% olub. 2024-cü ildə isə 3,2%-ə enəcəyi gözlənilir. Düşən inflyasiya əmtəə qiymətlərindəki yumşalmanı və pandemiyadan sonrakı geriləmədən sonra daxili tələbin normal artım templərinə qayıtmasını əks etdirir. El-Nino hava şəraitinə görə ərzaq qiymətlərində müəyyən dəyişikliklər olacaq.

Həmçinin həyata keçiriləcək yeni vergi islahatlarından sonra ÜDM-də dövlət gəlirləri artacaq, dövlət xərclərinin isə əksinə tədricən pandemiyadan əvvəlki səviyyələrə qayıtması gözlənilir.

İndoneziyanın iqtisadiyyatı bu gün əvvəlki dövürlərə nisbətən inkişaf etsə də, pandemiyadan əvvəlki vəziyyətini tam bərpa edə bilməyib. Əmək bazarlarında və məhsuldarlığın artımında da pandemiyanın əks təsirləri özünü göstərir.

Dünya Bankının İndoneziya və Şərqi Timor üzrə direktoru Satu Kahkonen öz çıxışında bildirib ki, İndoneziya problemləri idarə etmək və iqtisadi sabitliyi qorumaq üzrə təcrübəyə malikdir. Həmçinin qeyd edib ki, ölkənin qarşısında duran əsas vəzifə daha sürətli, daha yaşıl və daha əhatəli iqtisadi artımı təmin etməkdir. Belə artıma nail olmaq üçün səmərəliliyi, rəqabət qabiliyyətini və məhsuldarlığın artımını məhdudlaşdıran maneələri aradan qaldıran islahatların həyata keçirilməsini davam etdirmək vacibdir. Bunu etmək İndoneziyaya böyüməni sürətləndirməyə, daha çox və daha yaxşı iş yerləri yaratmağa və 2045-ci ilə qədər yüksək gəlirli ölkə olmaq vizyonuna nail olmağa imkan verəcək.

Həmçinin İndoneziyanın istixana qazı emissiyalarını yavaşlatmaqla yanaşı, iqtisadi artımı necə sürətləndirə və dayanıqlığı gücləndirə biləcəyinə dair təkliflər də verilir. Bundan başqa əgər İndoneziyanın aşağı karbonlu və iqlimə davamlı iqtisadiyyata keçid etsə iqtisadi artımın və yoxsulluğun azaldılmasında yeni mərhələ yaranacaq.

Yanacaq subsidiyalarında islahatları başa çatdırsa İndoneziya yaşıl keçid dövrünü inkişaf elətdirə biləcək. Bundan başqa İndoneziya yaşıl mallara tətbiq edilən qeyri-tarif ticarət tədbirlərini sadələşdirə və ya mərhələli şəkildə ləğv edə bilər. Bu da öz müsbət təsirini göstərəcək (www.worldbank.org).

**Diaqram 1. İndoneziyanın 2023-cü ildə qitələr üzrə idxalı.**




**Mənbə:**https://www.tendata.com/blogs/tradedata/5471. html aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

İndoneziyanın idxalının 74,8%-i Asiya ölkələrinin, 6,8%-i Avropa ölkələrinin, 6,3%-i Şimali Amerikanın, 4,8%-i Avstraliya və digər Okeaniya

regionlarının, 4,3%-i Afrikanın, 3%-i Latın Amerikasının (Meksika istisna olmaqla, lakin Karib dənizi daxil olmaqla) payına düşüb.

**Diaqram 2. İndoneziyanın 2023-cü ildə qitələr üzrə ixracı.**




**Mənbə:** https://www.worldstopexports.com/indonesias-top-10-exports/?expand_article=1 aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

İndoneziyanın ixracının 75,5%-i Asiya ölkələrinin, 10,3%-i Şimali Amerikanın, 8,5%-i Avropanın, 2,7%-i Afrikanın,1,6%-i Avstraliya və Yeni Zelandiyanın başçılıq etdiyi Okeaniyayanın, Meksika istisna olmaqla, lakin Karib dənizi daxil olmaqla 1,4%-i Latın Amerikasının payına düşüb.

**Hindistan.** 21 aprel 2024-cü il üzrə olan son məlumatlara əsasən Hindistanın hazırkı əhalisi 1,439,160,962 nəfərdir. Hindistanın əhalisinin sayı ümumi dünya əhalisinin 17,76%-nə bərabərdir. Hindistan əhalisinə görə ölkələr siyahısında 1-ci yerdədir (www.worldometers.info).

Praqnozlara görə 2024-cü ildə Hindistanın əhalisi 18,176,460 nəfər artacaq. 2025-ci ilin əvvəlində isə əhalinin sayı 1,461,898,454 nəfərə çatacağı proqnozlaşdırılır. Təbii artımın müsbət olacağı bildirilib. Əgər xarici miqrasiya əvvəlki il səviyyəsində olsa, miqrasiyaya görə əhalinin sayı 591 926 nəfər azalacaq. (https://countrymeters.info).

Ölkə G-20-nin üzvüdür. 2012-ci ildən etibarən artım 7%-dən yuxarı olaraq qalır.

Hindistan Çindən sonra sürətlə genişlənən istehlakçı sinifinə görə dünyanın ikinci ən sürətlə böyüyən dünya bazarı hesab olunur. Bir neçə il əvvəl biznes yalnız Mumbay, Dehli və Banqalorla məhdudlaşırdı. Ancaq indi bu belə deyil. Biznes artıq Naqpur, Əhmədabad, Çandigarh, Pune, Caypur və digər yerlərə yayılıb.

1947-ci ildə ölkə müstəqillik əldə edib. Müstəqillik əldə etdikdən sonrakı dövrlərdə Hindistanın iqtisadi inkişafına bir sıra amillər təsir etdi. Bu amillərə ictimai mülkiyyət və ağır tənzimləmə, korrupsiya aiddir. Buna baxmayaraq Hindistanın iqtisadiyyatı son 20 il ərzində çox inkişaf edib. Həm böyümədə, həm də beynəlxalq ticarətdə nəzərə çarpacaq dərəcədə artım var. Təkcə son on ildə Hindistanda adambaşına düşən ÜDM üç dəfə artıb.

Hindistanda ÜDM-in 57%-ni kütləvi xidmət sahələri, 29%-i sənaye və 15%-i kənd təsərrüfatı təşkil edir. Hindistan dünyanın on doqquzuncu ən böyük ixracatçısı və onuncu ən böyük idxalçısıdır (www.chamber-international.com).

**Cədvəl 4. 2021-ci ildə Hindistanın ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1. | ABŞ | 71510 | 18,11 |
| 2. | BƏƏ | 25447 | 6,45 |
| 3. | Çin | 23037 | 5,83 |
| 4. | Banqladeş | 14093 | 3,57 |
| 5. | Honkonq | 11290 | 2,86 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 5. 2021-ci ildə Hindistanın idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 87535 | 15,35 |
| 2. | BƏƏ | 43070 | 7,55 |
| 3. | ABŞ | 41387 | 7,26 |
| 4. | İsveçrə | 29492 | 5,17 |
| 5. | Səudiyyə Ərəbistanı | 27689 | 4,85 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Hindistanın ixracında ilk yeri ABŞ tutur. Lakin, idxalda isə ABŞ 3-cü yerdədir. BƏƏ ixracda və idxalda 2-ci yerdədir. Çin ixracda 3-cü, idxalda isə 1-ci yerdədir. Banqladeş ixracda 4-cü yerdədir. İxracda 5-ci yer isə Honkonqun payına düşür. İdxalda 4-cü yer İsveçrənin, 5-ci yer isə Səudiyyə Ərəbistanının payına düşür.

2022-ci ildə Hindistan ÜDM-ə (cari ABŞ dolları) görə dünyada 5-ci iqtisadiyyat, ümumi ixracda 15-ci, ümumi idxalda isə 8-ci yerdə olub.

Hindistanın ən çox ixrac neft məhsulları (86,2 milyard dollar), brilyantlar (25,9 milyard dollar), qablaşdırılmış dərmanlar (19,5 milyard dollar), zərgərlik

məmulatları (12,6 milyard dollar) və düyü (11,1 milyard dollar) ixrac edir. Bu məhsullar daha çox Hollandiyaya (17,6 milyard dollar), Çinə (15,3 milyard dollar) və Banqladeşə (13,8 milyard dollar) ixrac olunur.

2022-ci ildə Hindistan almaz (25,9 milyard dollar), düyü (11,1 milyard dollar), qeyri-pərakəndə təmiz iplik pambıq (3,23 milyard dollar), sintetik rekonstruksiya edilmiş zərgərlik daşları (1,84 milyard dollar) və digər təmiz bitki yağlarına (1,28 milyard dollar) görə dünyanın ən böyük ixracatçısı olub.

Hindistanın ən çox xam neft (170 milyard dollar), kömür briketləri (58,7 milyard dollar), qızıl (35,8 milyard dollar), neft qazı (32 milyard dollar) və brilyant (26,1 milyard dollar) idxal edir. Bu məhsullar əsasən Çindən (110 milyard dollar), Ərəb Əmirliyindən (51 milyard dollar), ABŞ-dan (48,5 milyard dollar), Səudiyyə Ərəbistanından (46,2 milyard dollar) və Rusiyadan (40,4 milyard dollar) idxal olunur.

2022-ci ildə Hindistan dünyanın ən böyük kömür briketləri (58,7 milyard dollar), almaz (26,1 milyard dollar), palma yağı (11,1 milyard dollar), qarışıq mineral və ya kimyəvi gübrələr (7,88 milyard dollar) və azotlu gübrələrin (7,37 milyard dollar) ən böyük idxalçısı olub.

2023-cü ilin dekabr ayında Hindistan 38,4 milyard dollar dəyərində məhsul ixrac edib. 58,2 milyard dollar dəyərində isə məhsul idxal edib. Sonda isə 19,8 milyard dollarlıq mənfi ticarət balansı yaranıb. 2022-ci ilin dekabrından 2023-cü ilin dekabrına qədər Hindistanın ixracı 360 milyon dollar (0,95%) artaraq 38 milyard dollardan 38,4 milyard dollara, idxal isə -1,99 milyard dollar (-3,3%) azalaraq 60,2 milyard dollardan 58,2 milyard dollara düşüb.

2023-cü ilin dekabr ayında Hindistan ən çox ABŞ (6,48 milyard dollar), Birləşmiş Ərəb Əmirlikləri (3,96 milyard dollar), Hollandiya (2,14 milyard dollar), Çin (1,67 milyard dollar) və Birləşmiş Krallıqdan (1,16 milyard dollar) məhsul ixrac edib. Məhsulların çox hissəsi isə Çindən (8,93 milyard dollar), BƏƏ-dən (4,95 milyard dollar), Rusiyadan (4,89 milyard dollar), ABŞ-dan (3,2 milyard dollar) və Səudiyyə Ərəbistanından (2,73 milyard dollar) idxal edilib (https://oec.world/en/profile/country/ind).

**Diaqram 3. Hindistanın 2022-ci ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/indias-top-10-imports/ aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

2022-ci ildə Hindistanın idxalının 60,6%-i Asiyanın, 16,8%-i Avropanın, 8,5%-i Şimali Amerikanın, 7,8%-i Afrikanın, 3,5%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 2,8%-i Avstraliya və Okeaniyanın payına düşüb.

Ölkə üzrə son məlumatlar 2021-ci ilə aiddir.

**Diaqram 4. Hindistanın 2021-ci ildə qitələr üzrə ixracı.**




**Mənbə:** https://www.worldstopexports.com/indias-top-10-exports aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Hindistanın ixracının 45,6%-i Asiyanın, 20,1%-i Şimali Amerikanın, 19,2%-i Avropanın, 9,6%-i Afrikanın, 3,6%-i Latın Amerikanın (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 1,9%-i Avstraliya və Okeaniyanın payına düşüb.

**Çin.** Dünyada ikinci ən yüksək ÜDM-ə sahib olan ölkədir. Milli Statistika Bürosunun məlumatlarına əsaən 2023-cü ildə cəmi 9,02 milyon doğum olub.

Əhalinin artımında baş verən azalma 1959-1961-ci illərdəki böyük aclıqdan sonra ilkdir. Bu hal daha da sürətlənməkdədir.

Çinin əmək qabiliyyətli əhalisinin 2100-cü ilə qədər cəmi 210 milyon nəfərə düşəcəyi proqnozlaşdırılır. Bu nəticə 2014-cü ildəki ən yüksək göstəricinin sadəcə beşdə biri deməkdir.

Çinin bir uşaq siyasəti çərçivəsində 1991 və 2017-ci illər arasında Çində ümumi doğuş nisbəti, bir qadına düşən orta doğum sayı, təxminən 1,66 səviyyəsində idi. Lakin o, 2020-ci ildə 1,28-ə, 2022-ci ildə 1,08-ə düşdü və hazırda isə 1-ə yaxındır.

Çin 2016-cı ildə tək uşaq siyasətindən imtina etdi. Daha sonra isə 2021-ci ildə ölkə vergi və digər güzəştlərlə dəstəklənən üç uşaq siyasətini dəstəklədi.

Lakin bu öz müsbət təsirini göstərmədi. Təbii ki, bunun da səbəbi var. Səbəb kimi iqtisadi təzyiqləri misal göstərə bilərik. Bundan başqa universiteti bitirən qadınlar kişilərə nisbətən daha az əmək haqqı alırlar və iş saatları çoxdur (https://phys. org /news/2024-01-china-population-halve.html, Xiujian Peng, 18 yanvar 2024).

**Cədvəl 6. 2021-ci ildə Çinin ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1. | ABŞ | 577125 | 17,16 |
| 2. | Honkonq | 349442 | 10,39 |
| 3. | Yaponiya | 165823 | 4,93 |
| 4. | Koreya | 148847 | 4,43 |
| 5. | Vyetnam | 137905 | 4,10 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 7. 2021-ci ildə Çinin idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1. | Digər Asiya ölkələri | 249877 | 9,31 |
| 2. | Koreya | 213445 | 7,95 |
| 3. | Yaponiya | 205524 | 7,66 |
| 4. | ABŞ | 180972 | 6,74 |
| 5. | Avstraliya | 163730 | 6,10 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Çinin ixracında ilk yeri ABŞ tutur. İdxalda isə ABŞ 4-cü yerdədir. İdxalda ilk yer digər Asiya ölkələrinin payına düşür. İxraca görə 2-ci yerdə Honkonqdur. Yaponiya həm ixracda, həm də idxalda 3-cü yerdədir. Koreya ixracda 4-cü, idxalda

isə 2-ci yerdədir. İxracda 5-ci yeri Vyetnam tutur. İdxalda isə 5-ci yeri Avstraliya tutur.

2022-ci ildə Çin ÜDM-ə (hazırkı ABŞ dolları) görə dünyada 2-ci iqtisadiyyat, ümumi ixracda 1-ci, ümumi idxalda isə 2-ci idi.

Çin daha çox yayım avadanlıqları (272 milyard dollar), inteqrasiya edilmiş sxemlər (212 milyard dollar), kompüterlər (181 milyard dollar), ofis maşın hissələri (111 milyard dollar) və yarımkeçirici cihazlar (70,2 milyard dollar) ixrac edib. Bu məhsullar əsasən ABŞ-a (551 milyard dollar), Honq-Konqa (276 milyard dollar), Yaponiyaya (178 milyard dollar), Almaniyaya (152 milyard dollar) və Cənubi Koreyaya (150 milyard dollar) ixrac olunub.

2022-ci ildə Çin yayım avadanlığı (272 milyard dollar), kompüterlər (181 milyard dollar), ofis maşın hissələri (111 milyard dollar), yarımkeçirici cihazlar (70,2 milyard dollar) və elektrik batareyaları (58,7 milyard dollar) üzrə dünyanın ən böyük ixracatçısı olub.

Çinin ən çox idxal etdiyi məhsullar xam neft (287 milyard dollar), inteqrasiya edilmiş sxemlər (232 milyard dollar), dəmir filizi (103 milyard dollar), neft qazı (72,7 milyard dollar) və qızıldır (67,6 milyard dollar). Bu məhsullar ABŞ-dan (151 milyard dollar), Cənubi Koreyadan (150 milyard dollar), Yaponiyadan (135 milyard dollar), Avstraliyadan (123 milyard dollar) və Çindən (123 milyard dollar) idxal olunur.

2022-ci ildə Çin dünyanın ən böyük xam neft (287 milyard dollar), inteqrasiya edilmiş sxemlər (232 milyard dollar), dəmir filizi (103 milyard dollar), soya (54,1 milyard dollar) və mis filizi (50,5 milyard dollar) idxalçısı olub.

2023-cü ilin dekabrında Çin 296 milyard dollar məhsul ixrac edib. İdxal isə 228 milyard dollar olub. Müsbət ticarət balansı 68 milyard dollar olub. 2022-ci ilin dekabrından 2023-cü ilin dekabrına qədər Çinin ixracı -10,4 milyard dollar (-3,39%) azalaraq 306 milyard dollardan 296 milyard dollara, idxal isə artım olub. Belə ki, 212 milyon dollar (0,093%) artaraq 228 milyard dollara yüksəlib. Bu da əlbəttə ki, çox böyük artım deməkdir (https://oec.world/en/profile/country/chn).

Diaqram 5-də isə Çinin idxalında qitələrin faiz payı verilib. Digər ölkələrdə oldugu kimi Çində də ən çox faiz payını Asiya qitəsi tutur. Ən az faiz payı isə Afrikanın payına düşür.

**Diaqram 5. Çinin 2023-cü ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/chinas-top-10-imports/?expand_article=1 aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Diaqramdan aydın olur ki, Çinin ümumi idxalının 52,1%-i Asiyanın, 19,6%-i Avropanın, 9%-i Şimali Amerikanın, 8,8%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 6,1%-i Avstraliya və Okeaniyanın, 4,3%-i isə Afrikanın payına düşüb.

**Diaqram 6. Çinin 2023-cü ildə qitələr üzrə ixracı.**




**Mənbə:** https://www.tendata. com/blogs/tradedata /5474 .html aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Çinin ixracının 47,8%-i Asiya ölkələrinin, 21,1%-i Avropanın, 18,6%-i Şimali Amerikanın, 5,1%-i Afrikanın, 4,8%-i Latın Amerikasının (Meksika istisna olmaqla, lakin Karib dənizi daxil olmaqla), 2,6%-i Okeaniyanın (Avstraliya və Yeni Zelandiya başçılıq edir) payına düşüb.

**Yaponiya.** 21 aprel 2024-cü ilin məlumatlarına əsasən ölkə əhalisi 122,757,156 nəfərdir. 2023-cü ilin ortalarında əhalinin sayı 123,294,513 nəfər olub. Yaponiyanın əhalisi dünya əhalisinin 1,53%-nə bərabərdir. Əhalisinin sayına görə 12-ci yerdədir (world ometers.info).

Yaponiyanın əhalisi 2009-cu ildən etibarən azalmaqdadır. 2009-cu ildə əhalinin sayı 128,56 milyon nəfər idi. Əhalinin sayı 2058-ci ilə qədər 100 milyondan aşağı düşəcəyi proqnozlaşdırılır. Yaponiya əhalisinin azalmasının əsas səbəbi doğumların sayının sürətlə azalmasıdır. 2019-cu ildə Yaponiyada cəmi 864 000 körpə doğulub ki, bu da 2018-ci ildən 54 000 azdır.

Yaponiyanın doğum səviyyəsini artırmaq cəhdləri uğursuzluqla nəticələnib. Bununda əlbəttə ki, səbəbləri var. Bəziləri iqtisadiyyatı günahlandırır. Çünki müasir dövrümüzdə uşağa baxmaq çətindir. Kişilər üçün ailələrini dolandırmaq imkanı verən sabit, yaxşı maaşlı işlər demək olarki yoxdur. Əhali artımının yavaşlaması və eləcə də əhalinin qocalması ölkəyə öz əks təsirini göstərir. Çünki, vergiyə cəlb olunan vətəndaşların sayı azalır, sosial rifah xərcləri isə çoxalır. Proqnozlara əsasən Yaponiya əhalisi 2049-cu ilə qədər 127 milyondan 100 milyon nəfərə qədər azalacaq.

Mütəxəssislər Yaponiyanın aşağı artımını ölkədə uşaq böyütmək xərclərinin yüksək olması, Yaponiyanın immiqrantları qəbul etmək istəməməsi, uşaq sahibi olmaq əvəzinə daha uzun müddət işləməyi və karyera qurmağı seçən qadınların sayının artması ilə əlaqələndirirlər.

Əhalinin artmasına mane olan başqa amil isə gənclər arasında intiharların sayının çox olmasıdır (worldpopulationreview.com/countries/japan-population).

**Cədvəl 8. 2021-ci ildə Yaponiyanın ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 163860 | 21,64 |
| 2. | ABŞ | 135976 | 17,96 |
| 3. | Digər Asiya ölkələri | 54559 | 7,21 |
| 4. | Koreya | 52568 | 6,94 |
| 5. | Honkonq | 35446 | 4,68 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 9. 2021-ci ildə Yaponiyanın idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 185664 | 24,04 |
| 2. | ABŞ | 82966 | 10,74 |
| 3. | Avstraliya | 52241 | 6,76 |
| 4. | Digər Asiya ölkələri | 33546 | 4,34 |
| 5. | Koreya | 32082 | 4,15 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Həm ixracda, həm də idxalda Çin ilk yerdədir. ABŞ həm ixrac, həm də idxalda 2-ci yerdədir. İxracda digər Asiya ölkələri 3-cü, idxalda isə 4-cü yerdədir. İdxalda Avstraliya 3-cü yerdədir. Koreya ixracda 4-cü, idxalda isə 5-ci yerdədir. İxracda Honkonq 5-ci yerdədir.

2022-ci ildə Yaponiya ÜDM-ə (hazırkı ABŞ dolları) görə dünyada 3-cü iqtisadiyyat, ümumi ixracda 4-cü, ümumi idxalda isə 4-cü olub.

Yaponiyanın ən çox ixrac etdiyi mallar avtomobillər (89 milyard dollar), fərdi funksiyaları olan maşınlar (38,5 milyard dollar), inteqrasiya edilmiş sxemlər (36,9 milyard dollar), motorlu nəqliyyat vasitələri onların hissələri və aksesuarları (30,6 milyard dollar) və təmizlənmiş neftdir (14,5 milyard dollar). Bu məhsullar əsasən ABŞ-a (137 milyard dollar), Çinə (135 milyard dollar), Cənubi Koreyaya (50,8 milyard), Çin Taypeyinə (50,1 milyard dollar) və Taylanda (30,8 milyard dollar) ixrac olunurdu.

2022-ci ildə Yaponiya fərdi funksiyaları olan maşınların ($38,5 milyard), isti dəmir örtüyü (11,2 milyard dollar), yastı polad örtüyü (6,3 milyard dollar), termostatlar (5,66 milyard dollar) və fotokimyəvi məhsullara(3,47 milyard dollar), görə dünyanın ən böyük ixracatçısı olub.

Yaponiyanın ən çox idxal etdiyi məhsullar  xam neft (86,7 milyard dollar), neft qazı (64,2 milyard dollar), kömür briketləri (53,7 milyard dollar), inteqrasiya edilmiş sxemlər (28,9 milyard dollar) və yayım avadanlığı olub(20,3 milyard dollar). Bu məhsullar ölkəyə Çindən (178 milyard dollar), Avstraliyadan (80,1 milyard dollar), ABŞ-dan (79,5 milyard dollar), Birləşmiş Ərəb Əmirliklərindən (40,9 milyard dollar) və Səudiyyə Ərəbistanından (36,5 milyard dollar) idxal olunub.

2022-ci ildə Yaponiya ət (3,02 milyard dollar), efirlər (2,28 milyard dollar), emal olunmuş tütün (1,75 milyard dollar), sulfatlar (860 milyon dollar) və qələvi metallar (679 milyon dollar) üzrə dünyanın ən böyük idxalçısı olub.

2023-cü ilin dekabr ayında Yaponiyanın ən çox ixrac etdiyi mallara avtomobillər, inteqrasiya edilmiş sxemlər, motorlu nəqliyyat vasitələri və onların hissələri və aksesuarları aiddir.

2023-cü ilin dekabr ayında Yaponiyanın ən çox idxal etdiyi məhsullar xam neft, neft qazı, kömür briketləri, inteqrasiya sxemləri və telefonlar daxildir (https://oec.world/en/profile/country/jpn).

Keçən il ümumi ixrac 100,88 trilyon yenə (680 milyard dollar) çatıb ki, bu da 2022-ci ilə nisbətən 2,8% çoxdur. Avtomobillərin daşınması 32,7%, tikinti və mədən maşınlarının daşınması isə 16,2% artıb.

Yaponiyanın ixracı 2020-ci ildə COVID-19 pandemiyasına görə azalmışdı. Lakin pandemiyadan sonra ixrac əvvəlki vəziyyətinə geri qayıtdı.

Keçən il ümumi idxal neft və qaz qiymətlərinin aşağı düşməsi səbəbindən 7% azalaraq 110,17 trilyon yen olub. İllik ticarət isə 9,29 trilyon yen olub. 2022-ci illə müqayisədə 20 trilyon yen azalıb.

Dekabr ayı üzrə aylıq ticarət hesabatlarına əsasən ixrac əvvəlki illə müqayisədə 9,8% artıb, idxal isə əksinə 6,8% azalıb.

Dekabrda Çinə bağlı daşınmalar 9,6% artıb (asia.nikkei.com).

**Diaqram 7. Yaponiyanın 2023-cü ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/japans-top-10-imports/?expand_article=1 aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Yaponiyanın idxalının 59,4%-i  Asiyanın, 13,4%-i Avropanın, 13,2%-i Şimali Amerikanın, 9,1%-i Avstraliya və Papua Yeni Qvineya başda olmaqla Okeaniyanın, 3,4%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 1,4%-i Afrikanın payına düşüb.

**Diaqram 8. Yaponiyanın 2023-cü ildə qitələr üzrə ixracı.**




**Mənbə:** https://www.worldstopexports.com/japans-top-10-exports/ aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Yaponiya ixracının 56,4%-i Asiyanın, 23,5%-i Şimali Amerikanın, 13,4%-i Avropanın, 3%-i Avstraliya və Okeaniyanın, 2,4%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 1,4%-i Afrikanın payına düşüb.

**Malayziya.** Aparıcı Cənub-Şərqi Asiya ölkələrindən biridir. Ölkədə çoxlu sayda müxtəlif etnik qruplar yaşayır. Bunlara malaylar, çinlilər, hindlilər və digər yerli bumiputra qrupları daxildir. Əhalinin 50,1%-ini malaylar, 22,6%-ini çinlilər, 11,8%-ini bumiputralar, 6,7%-ini hindular, 0,7%-ni isə digər qruplar təşkil edir (https://www. worldatlas. com/ articles/ethnic-groups-of-malaysia.html, Benjamin Elisha Sawe 18 iyul 2019).

Malayziyanın əhalisi 2024-cü ilin yanvar ayında 34,49 milyon nəfər olub. Malayziyanın əhalisi 2023-cü ilin əvvəli ilə 2024-cü ilin əvvəli arasında 367 min (+1,1 faiz) artıb. Malayziya əhalisinin 48,9%-ni qadınlar, 51,1%-ni isə kişilər təşkil edir (https://datareportal.com, Simon Kemp, 23 fevral 2024).

Cədvəl `10-da 2021-ci ildə Malayziyanın ixracında əsas ölkələrin adları və onlar haqqında məlumatlar verilib. Cədvəl 11-də isə idxalında əsas olan ölkələrin adları verilib.

**Cədvəl 10. 2021-ci ildə Malayziyanın ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 46352 | 15,49 |
| 2. | Sinqapur | 41847 | 13,98 |
| 3. | ABŞ | 34366 | 11,48 |
| 4. | Honkonq | 18494 | 6,18 |
| 5. | Yaponiya | 18167 | 6,07 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 11. 2021-ci ildə Malayziyanın idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1. | Çin | 55270 | 23,20 |
| 2. | Sinqapur | 22619 | 9,49 |
| 3. | Digər Asiya ölkələri | 18150 | 7,62 |
| 4. | ABŞ | 18080 | 7,59 |
| 5. | Yaponiya | 17791 | 7,47 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Malayziyanın həm ixracında, həm də idxalında ilk yeri Çin tutur. 2-ci yeri həm ixracda, həm də idxalda Sinqapur tutur. İxracda 3-cü yeri ABŞ tutur. Lakin, ABŞ idxalda 4-cü yerdədir. İdxalda 3-cü yeri digər Asiya ölkələri tutur. İxracda 4-cü yeri Honkonq tutur. Həm ixracda, həm də idxalda 5-ci yeri Yaponiya tutur.

2022-ci ildə Malayziya ÜDM-ə (cari ABŞ dolları) görə dünyada 36-cı iqtisadiyyat, ümumi ixracda 22-ci, ümumi idxalda isə 23-cü yerdə olub.

Malayziyanın ən çox ixrac etdiyi məhsullara inteqrasiya edilmiş sxemlər (78,9 milyard dollar), neft emalı (38,5 milyard dollar), neft qazı (19,5 milyard dollar), palma yağı (17,7 milyard dollar) və xam neft (10,2 milyard dollar) aiddir. Bu məhsullar ölkədən əsasən Sinqapur (53,8 milyard dollar), Çin (48,5 milyard dollar), ABŞ (44,2 milyard dollar), Yaponiya (23,6 milyard dollar) və Honq-Konq (21,7 milyard dollar) kimi ölkələrə ixrac olunur.

2022-ci ildə Malayziya dünyanın ən böyük osiloskop (elektron ölçü və müşahidə vasitəsi) (5,99 milyard dollar), rezin geyim (4,78 milyard dollar), bitki yağları (1,66 milyard dollar), nadir torpaq metal birləşmələri (690 milyon dollar) və mis tozu (664 milyon dollar) ixracatçısı olub.

Malayziyanın idxalında əsas yeri inteqrasiya edilmiş sxemlər (45,1 milyard dollar), neft emalı (27,1 milyard dollar), xam neft (12,2 milyard dollar), kömür

briketləri (6,43 milyard dollar) və yayım avadanlığı (4,38 milyard dollar) tutub. Bu məhsullar əsasən Çindən (82 milyard dollar), Sinqapurdan (35,9 milyard dollar), ABŞ-dan (18,4 milyard dollar), Tayvandan (17,7 milyard dollar) və Yaponiyadan (16 milyard dollar) idxal olunub (https://oec.world/en/profile/country/mys).

Malayziyanın iqtisadi artımı 2023-cü ilin dördüncü rübündə 3% azalıb. İxracdada azalma olub. Bank Negara, ölkədə işsizlik səviyyəsinin pandemiyadan əvvəlki səviyyəyə yəni, 3,3%-ə düşdüyünü, işçi qüvvəsinin nisbətinin isə 2023-cü ildə yüksək səviyyədə olduğu qeyd edib (https://www. thestar. com).

**Diaqram 9. Malayziyanın 2023-cü ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/malaysias-top-10-imports aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

2023-cü ildə Malayziyanın idxalının 74,5%-i Asiyanın, 10,1%-i Avropanın, 7,9%-i Şimali Amerikanın, 3,3%-i Avstraliya və Okeaniyanın, 2,3%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla), 1,8%-i Afrikanın payına düşüb.

**Diaqram 10. Malayziyanın 2023-cü ildə qitələr üzrə ixracı.**




**Mənbə:** https://www.worldstopexports.com/malaysias-top-10-exports/?expand_article=1 aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Malayziyanın ixracının 70,5%-i Asiyanın, 12,9%-i Şimali Amerikanın, 9,1%-i Avropanın, 4,3%-i Avstraliya və Okeaniyanın, 2,2%-i Afrikanın, 0,9%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla) payına düşüb.

**Pakistan.** 21 aprel 2024-cü ilin məlumatlarına əsasən Pakistanın hazırkı əhalisi 244,266,895 nəfərdir. 2023-cü ilin ortasında isə əhalisinin sayı 240,485,658 nəfər olub. Pakistanın əhalisi ümumi dünya əhalisinin 2,99%-nə bərabərdir. Əhalisinin sayına görə 5-ci yerdədir (https://www.worldometers.info).

Proqnozlara görə, Pakistanın əhalisi 2092-ci ildə 404,68 milyon nəfərə çatacaq. Bununla da əhalisinin sayının 2048-ci ildə İndoneziya əhalisini ötəcəyi və 331,29 milyon nəfərə çatacağı gözlənilir.

1998-2017-ci illər arasında Pakistanda əhalinin orta artım tempi 2,40% təşkil edib. 220 milyondan çox əhali üçün bu, ildə təxminən 5,28 milyon nəfər artım deməkdir.

Doğum nisbəti yüksəkdir. Əhalinin artımı işsizliyə, səhiyyəyə, təhsilə eləcə də digər sahələrə təsir edə bilər (https://worldpopulationreview.com).

Cədvəl 12-də 2021-ci ildə ixraca aid olan məlumatlar əks olunub. Cədvəl 13-də isə idxala aid olan məlumatlar verilib.

**Cədvəl 12. 2021-ci ildə Pakistanın ixracında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İxracı, milyon ABŞ dolları | Məcmu ixracda payı, faiz |
|---|---|---|---|
| 1 | ABŞ | 6077 | 21,10 |
| 2 | Çin | 3034 | 10,54 |
| 3 | Böyük Britaniya | 2104 | 7,31 |
| 4 | Almanya | 1564 | 5,43 |
| 5 | Hollandiya | 1397 | 4,85 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 13. 2021-ci ildə Pakistanın idxalında əsas tərəfdaş ölkələr.**

| № | Ölkələrin adı | İdxalı, milyon ABŞ dolları | Məcmu idxalda payı, faiz |
|---|---|---|---|
| 1 | Çin | 20645 | 28,32 |
| 2 | BƏƏ | 7352 | 10,09 |
| 3 | İndoneziya | 4191 | 5,75 |
| 4 | ABŞ | 3830 | 5,25 |
| 5 | Səudiyyə Ərəbistanı | 3770 | 5,17 |

**Mənbə:** Dünya bankının (www.worldbank.org) 2021-ci ilə aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

ABŞ ixracda ilk yeri tutsada, idxalda 4-cü yerdədir. Çin ixracda 2-ci, idxalda isə 1-ci yerdədir. İxracda 3-cü yeri Böyük Britaniya tutur. İdxalda isə 3-cü yer İndoneziyanın payına düşür. İxracda 4-cü yerdə Almanyadır. İxracda 5-ci yer isə Hollandiyadır. Səudiyyə Ərəbistanı idxalda 5-ci yeri tutur.

2022-ci ildə Pakistan ÜDM-ə (cari ABŞ dolları) görə dünyada 41-ci iqtisadiyyat, ümumi ixracatda 66-cı, ümumi idxalda isə 49-cu yerdə olub.

Pakistanın ən çox ixrac etdiyi məhsullara düyü (2,55 milyard dollar), trikotajsız kişi kostyumları (2,53 milyard dollar), trikotaj sviterlər (2,01 milyard dollar) və xam neft (1,56 milyard dollar) aiddir. Bu məhsullar ABŞ-a (6,47 milyard dollar), Almaniyaya (2,8 milyard dollar), Çinə (2,79 milyard dollar), BƏƏ-yə (2,58 milyard dollar) və Böyük Britaniyaya (2,41 milyard dollar) ixrac olunur.

Pakistanın ən çox idxal etdiyi məhsullar neft məhsulları (6,98 milyard dollar), xam neft (5,23 milyard dollar), neft qazı (4,58 milyard dollar), palma yağı (3,8 milyard dollar) və xam pambıqdır (2,44 milyard dollar). Bu məhsullar Çindən (21 milyard dollar), Bəə-dən (5,8 milyard dollar), İndoneziyadan (4,55 milyard dollar), Səudiyyə Ərəbistanından (4,5 milyard dollar) və Küveytdən (3,97 milyard dollar) idxal olunur.

2022-ci ildə Pakistan sulfonlaşdırılmış, nitratlanmış və ya nitrolaşdırılmış karbohidrogenlər (822 milyon dollar), çay (707 milyon dollar), istifadə edilmiş geyim (250 milyon dollar) və metal iplik (28 milyon dollar) üzrə dünyanın ən böyük idxalçısı olub (https://oec.world/en/profile/country/pak).

2024-cü ilin iyununda Pakistan iqtisadiyyatının cəmi 1,8 faiz artacağı gözlənilir. Buna görə də, dünya bankı yoxsulluğu aradan qaldırmaq və iqtisadi inkişafı təmin etmək üçün yeni islahatlar həyata keçirilməsinin vacib olduğunu deyib.

2024-cü ilin birinci yarısında kənd təsərrüfatı məhsulları sayəsində iqtisadiyyat bir qədər güclənib. Bunun sayəsində digər sektorlarda da müəyyən canlanmanı baş verib. Lakin bu artım yoxsulluğu azaltmağa kifayət etmir. Hazırda pakistanlıların 40 faizi yoxsulluq həddinin altında yaşayır. Böyük borc yükü və

məhdud valyuta ehtiyatları fonunda makroiqtisadi risklər hələ də çox yüksək olaraq qalır.

Dünya bankının Pakistan üzrə direktoru Najy Benhassine bildirib ki, maliyyə sektorunun sabitliyinin yaxşılaşdırılması və özəl sektora kreditlərin artırılması iqtisadiyyatın bərpası üçün çox vacibdir.

Bundan başqa dövlət investisiyalarının sayı artırılmalıdır. Özəl sektorun fəaliyyətində məhdudiyyətlərin aradan qaldırılması da müsbət təsir edəcək (https://www.worldbank.org).

Ölkə üzrə olan son məlumat 2021-ci ilə aiddir.

**Diaqram 11. Pakistanın 2021-ci ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/pakistans-top-10-exports aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Pakistanın ixracatının 35%-i Avropanın, 34,2%-i Asiyanın, 22,8%-i Şimali Amerikanın, 5,2%-i Afrikanın, 1,6%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla) 1,3%-i Avstraliya və Okeaniyanın payına düşüb.

**Diaqram 12. Pakistanın 2022-ci ildə qitələr üzrə idxalı.**




**Mənbə:** https://www.worldstopexports.com/pakistans-top-10-imports/?expand_article=1 aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Pakistandan idxal olunan ümumi malların 75,3%-i Asiyanın, 10%-i Avropanın, 6,1%-i Afrikanın, 5,1%-i Şimali Amerikanın, 2,7%-i Latın Amerikasının (Meksika istisna olmaqla, Karib dənizi daxil olmaqla) 0,8%-i Avstraliya və Okeaniyanın payına düşür.

## 2.2. Asiyanın aparıcı ölkələrinin xarici ticarəti

**İndoneziya.** Xarici ticarətə əsaslanan güclü iqtisadiyyata malik ölkədir. İndoneziya palma yağı, rezin və tekstil kimi malların ixracı ilə məşhur olsa da, bundan başqa məhsullarda ixrac edir.

Son illərdə İndoneziyanın iqtisadiyyatı çox inkişaf edib. İndoneziya ticarət məlumatlarına görə, İndoneziyanın ən böyük ticarət tərəfdaşıları Çin, Sinqapur, Yaponiya, ABŞ və Malayziyadır.

Çin İndoneziyanın ən böyük idxal mənbəyidir və ümumi idxalın 20%-dən çoxunu təşkil edir. İndoneziyanın idxal məlumatlarına görə, Sinqapur İndoneziyanın ikinci ən böyük idxal mənbəyidir və ümumi idxalın 10%-dən çoxunu təşkil edir. İndoneziya həmçinin Yaponiya, ABŞ və Malayziyadan da böyük miqdarda məhsul idxal edir (https://www.exportimportdata.in).

Cədvəl 14-də İndoneziyanın idxalında 2022-ci ilə aid, cədvəl 15-də isə 2023-cü il idxalına aid məlumatlar verilib.

**Cədvəl 14. 2022-ci ildə İndoneziyanın idxalında top 10 məhsul.**

| № | Məhsulun adı | Məbləği. Milyard ABŞ dolları | Ümumi idxalın faizi |
|---|---|---|---|
| 1 | Neft və digər mineral yanacaqlar | 44,9 | 18,9 |
| 2 | Kompüterlər və elektron avadanlıqlar | 31,6 | 13,3 |
| 3 | Elektrikli cihazlar və maşınlar | 26,4 | 11,1 |
| 4 | Dəmir və polad | 13,9 | 5,9 |
| 5 | Plastikdən hazırlanmış əşyalar | 11,1 | 4,7 |
| 6 | Nəqliyyat və nəqliyyat vasitələri | 9,5 | 4 |
| 7 | Üzvi kimyəvi maddələr | 7,7 | 3,2 |
| 8 | Qida sənayesi və heyvan yemi tullantıları | 4,6 | 1,9 |
| 9 | Taxıl | 4,5 | 1,9 |
| 10 | Dəmir və polad məhsulları | 4 | 1,7 |

**Mənbə:** https://www.tradeimex.in/indonesia-import aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

**Cədvəl 15. 2023-cü ildə İndoneziyanın idxalında top 10 məhsul.**

| № | Məhsulun adı | Məbləği. Milyard ABŞ dolları | Ümumi idxalın faizi |
|---|---|---|---|
| 1 | Neft daxil olmaqla mineral yanacaqlar | 44,9 | 18,9 |
| 2 | Kompüterlər və elektron avadanlıqlar | 31,6 | 13,3 |
| 3 | Elektrikli maşın və avadanlıqlar | 26,4 | 11,1 |
| 4 | Dəmir və polad | 13,9 | 5,9 |
| 5 | Plastik | 11,1 | 4,7 |
| 6 | Nəqliyyat | 9,5 | 4 |
| 7 | Üzvi kimyəvi maddələr | 7,7 | 3,2 |
| 8 | Qida sənayesi və heyvan yemi tullantıları | 4,6 | 1,9 |
| 9 | Taxıl | 4,5 | 1,9 |
| 10 | Dəmir və polad məhsulları | 4 | 1,7 |

**Mənbə:** https://www.tendata.com/blogs/tradedata/5471.html aid məlumatlar əsasında müəllif tərəfindən tərtib olunub.

2022-2023-cü illərin idxal cədvəllərinə baxdıqda görürük ki, heç bir dəyişiklik baş verməyib.

İndoneziyanı ixrac bazarında bu qədər rəqabətli edən onun təklif etdiyi müxtəlif mallardır. Zəngin təbii sərvətlərin və istehsal olunan məhsulların qarışığı olan ölkənin ixracatı bir çox kateqoriyalar üzrə müxtəlif çeşidli məhsulları əhatə edir və bu, onu qlobal alıcılar üçün cəlbedici bir məkana çevirir.

